Xalqın qəzeti!
# Xalq qəzeti
№ 87 (30781) 1 may 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Milli iqtisadiyyat yeniləşir, böyüyür

## Prezident İlham Əliyev Qusarda



Səhifə ⇨ 2

## İsrail Dövlətinin Prezidenti Zati-aliləri cənab İsxak Hersoqa

**Hörmətli cənab Prezident!**

İsrail Dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə İsrail arasında mövcud olan dostluq əlaqələrinin və əməkdaşlığın yüksək səviyyəsi xalqlarımızın tarixi bağlılığının, bir-birinə bəslədiyi hörmətin və rəğbətin bariz ifadəsidir. Qarşılıqlı etimad və dəstək kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-İsrail dövlətlərarası münasibətlərinin dinamik və hərtərəfli inkişaf etməsi məmnunluq doğurur.

Azərbaycan yaxın dostu və etibarlı tərəfdaşı olan İsrail ilə münasibətlərin genişlənməsinə xüsusi əhəmiyyət verir. Bu gün ölkələrimiz iqtisadiyyat, ticarət, müdafiə, humanitar və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyət göstərirlər. Cari ilin yanvarında Davosda Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini və müzakirələri ən xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, Azərbaycan ilə İsrail arasındakı ənənəvi dostluq münasibətləri, bir sıra mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə qarşıdakı dövrdə də yüksələn xətt üzrə inkişaf edəcək və daha da möhkəmlənəcəkdir.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İsrail xalqına sülh, əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2025-ci il**

## Azərbaycan–Çin, Bakı–Tehran: İrəvanda əndişə var

Səhifə ⇨ 3

## Çoxvektorlu diplomatiya müstəvisinə keçid

### *İran–Azərbaycan əməkdaşlığının inkişaf kardioqramı*



**İran–Azərbaycan münasibətləri regional geosiyasətin dərinliklərinə nüfuz edən çoxölçülü, balanslı və strateji xarakter daşıyır. Gələcəkdə beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərin dərinləşdirilməsi, xüsusilə enerji, nəqliyyat, təhlükəsizlik və mədəni sahələrdə qarşılıqlı etimadın artırılması regionun sabitliyinə və tərəflərin milli maraqlarının təminatına əhəmiyyətli töhfələr verə bilər.**

İranla Azərbaycan arasında münasibətlərin inkişaf trayektoriyası müasir dövrdə daha mürəkkəb və çoxtərəfli xarakter daşıyır. Regionun iki önəmli dövləti olan İran və Azərbaycan tarixən müxtəlif imperiyaların və geosiyasi proseslərin təsirində formalaşaraq, bu gün öz milli maraqları və strateji vizyonları fonunda yeni əməkdaşlıq əlaqələri qururlar. İkitərəfli münasibətlərdə gərginliklərlə müşayiət olunan dönəmlər olsa da, qarşılıqlı asılılıq və regional təhlükəsizlik ehtiyacları tərəfləri zaman-zaman əməkdaşlığa vadar etmişdir.

*(ardı 3-cü səhifədə)*



## Karvan keçib – hay-küy isə kəsilmir...

Səhifə ⇨ 5




## Türkiyə Avropaya indi daha çox lazımdır

Səhifə ⇨ 11

## “Amnesty International” və erməni avantürizminə xidmət




Səhifə ⇨ 4

## Şimal–Cənub Nəqliyyat Dəhlizi ölkəmizi İranla daha da yaxınlaşdırır



Səhifə ⇨ 7

# Milli iqtisadiyyat yeniləşir, böyüyür

## Prezident İlham Əliyev Qusarda

### *Bağçılıq və soyuducu anbar kompleksi ilə tanışlıq*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Qusar rayonunda "İsmikhanlı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) bağçılıq və soyuducu anbar kompleksi ilə tanış olub.**





İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına kompleksin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, cəmiyyət tərəfindən Qusarda 330, Ağsuda isə 30 hektar ərazidə ən son texnologiyalar əsasında intensiv bağlar salınıb. Hazırda burada 230 hektar sahədə alma, 35 hektarda armud, 26 hektarda şaftalı, 21 hektarda nektarin, 18 hektarda isə gilas ağacları əkilib. Bu cür bağların salınması kənd təsərrüfatı təyinatlı torpaqlardan maksimum səmərəli istifadəyə və yüksək məhsuldarlıq əldə etməyə imkan verir.

Soyuducu anbar kompleksi 2023-cü ilin oktyabrında istifadəyə verilib. Kompleks 8 min 700 ton tutuma malik soyuducu meyvə anbarından, çeşidləmə və paketləmə sahəsindən, material anbarından, hazır məhsul və yükləmə hissələrindən ibarətdir. Soyuducu anbar hər biri 300 ton tutuma malik 29 soyutma kamerası ilə təchiz edilib.

Çeşidləmə sahəsində quraşdırılan müasir avadanlıq vasitəsilə meyvələr rənginə, formasına və ölçüsünə görə çeşidlənir ki, bu da məhsulların bazar tələblərinə



Burada yetişdirilən meyvələrin satış və ixrac prosesi il boyu davam etdirilir. Məhsullar yerli bazara çıxarılmaqla yanaşı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Rusiyaya ixrac olunur.

Bağlarda aqrotexniki işlərin daha dəqiq və səmərəli görülməsi məqsədilə Türkiyə, İtaliya və İspaniyadan mütəxəssislər cəlb olunub. Burada yüksək qənaətliliyə malik damcı suvarma texnologiyasından istifadə olunur ki, bu da həm ekoloji davamlılığı təmin edir, həm də su itkisinin qarşısını alır. Təsərrüfatın texnika parkı dünyanın aparıcı şirkətlərinin müasir avadanlıqları ilə təchiz olunub.

uyğun paketlənməsini təmin edir. Çeşidləmə sahəsində, həmçinin saatda mindən çox qatlama və yapışdırma gücünə malik avadanlıq vasitəsilə qablaşdırma qutuları hazırlanır.

Layihə dəyəri 18 milyon manat olan "İsmikhanlı" bağçılıq və soyuducu anbar kompleksində 270 nəfər daimi, 400 nəfər isə mövsümi işlə təmin olunub. Layihənin reallaşmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 3,3 milyon manat güzəştli kredit ayrılıb. Müəssisə avadanlıqların idxalı zamanı gömrük və vergi güzəştlərindən yararlanıb.

## Dövlət başçısı Sumqayıtda

### *Kimya Sənaye Parkında yeni müəssisələr açılıb*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Sumqayıt Kimya Sənaye Parkında olub, "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin və "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodlarının açılışında iştirak edib.**

Əvvəlcə "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin istehsalı zavodunun açılışı oldu.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına ölkəmizdəki sənaye zonaları və Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti barədə məlumat verdi.



Hazırda Azərbaycanda 9 sənaye parkı və 4 sənaye məhəlləsi var. Sənaye zonaları üzrə indiyədək ümumi investisiya həcmi 8,1 milyard manat olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb və 10 min 600-dən artıq daimi iş yeri yaradılıb. Ötən müddətdə sənaye zonaları tərəfindən 16,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 5,2 milyard manatlıq hissəsi ixrac edilib.

Azərbaycan Prezidentinin 2011-ci ildə imzaladığı fərmanla yaradılan Sumqayıt Kimya Sənaye Parkı ölkəmizdə ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.

Ərazisi 613 hektar olan parkda neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Burada ümumi investisiyalarının həcmi, təqribən, 6 milyard manatdan artıq olan 39 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, onlardan da 24-ü artıq fəaliyyət göstərir. Bu gün iki zavodun istifadəyə verilməsi ilə burada fəaliyyət göstərən müəssisələrin sayı 26-ya çatıb. İndiyədək Parkın rezidentləri tərəfindən, ümumilikdə, təxminən, 14 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da, təqribən, 5 milyard manatlıq hissəsi ixracın payına düşür. Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ilin birinci rübü ərzində ötən ilin eyni dövrü ilə müqayisədə istehsal 14,2 faiz, ixrac isə 17,2 faiz artıb. Hazırda burada 6 mindən çox insan daimi işlə təmin olunub. Parkda istehsal olunan məhsullar 70-dən çox ölkəyə ixrac edilir.

Tikinti kimyəvilərinin istehsalı zavodu ilə bağlı bildirildi ki, "Kartaş Kimya" MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Təməli 2023-cü ildə dövlətimizin başçısı tərəfindən qoyulan zavodun tikintisi üçün 2,5 hektar ərazi ayrılıb.

Türkiyənin qabaqcıl avadanlıqları ilə təchiz olunan müəssisədə məhsul çeşidləri üzrə 7 istehsal xətti qurulub. Zavodun ümumi illik istehsal həcmi 295 min ton təşkil edir. Məhsul istehsalında istifadə edilən əsas xammal ölkədaxili resurslar hesabına təmin olunur. Yeni zavodun fəaliyyətə başlaması məhsul çeşidinin artırılması ilə yanaşı, daha əvvəl istehsal olunmayan məhsulların istehsalını təmin edərək idxalı əvəzləyəcək. Bununla yanaşı, məhsulların Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Rusiya və Gürcüstana ixracı nəzərdə tutulur.

Dövlətimizin başçısı zavodu işə saldı.

Burada sement əsaslı quru qarışıqlar, su izolyasiya, döşəmə materialları, sement üyüdücü qatqıları, beton qatqıları və onun əsas xammalı istehsal olunacaq.

Zavodda hazırda 102 nəfər işlə təmin edilib. Növbəti mərhələdə isə işçilərin sayının 245 nəfərə çatdırılması nəzərdə tutulur.

Layihənin investisiya tutumu 25 milyon manat təşkil edir. İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu tərəfindən müəssisəyə 6 milyon manat güzəştli kredit verilib. Müəssisə rezidentlərə verilən güzəştlərdən də yararlanıb.

*

Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodunun açılışında iştirak etdi.

"Az-Tex-İmport" MMC 2022-ci ilin aprelində Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Bu müəssisənin təməli də elə həmin il dövlətimizin başçısı tərəfindən qoyulub.

Müəssisə İtaliyanın "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobillərinin yığımını həyata keçirəcək. Layihənin ikinci mərhələsində avtomobillərin kuzalarının istehsalı da nəzərdə tutulur. Zavodda ildə 100 ədəd yük avtomobili və xüsusi texnika, 300 ədəd kuza istehsal olunacaq. Hər iki mərhələ üzrə müəssisədə 150 yeni iş yerinin yaradılması planlaşdırılır. Artıq layihənin birinci mərhələsi üzrə 96 nəfər işlə təmin edilib. Dövlətimizin başçısı müəssisəni işə saldı.

Zavodda istehsal ediləcək məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici bazara çıxarılması da nəzərdə tutulur. "Az-Tex-İmport" MMC də Sumqayıt Sənaye Parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən faydalanıb.

Ümumi investisiya dəyəri 19,2 milyon manatdan çox olan layihə Sumqayıt Kimya Sənaye Parkında 4 hektar ərazini əhatə edir.

Yeni müəssisələrin fəaliyyətə başlaması ölkəmizdə qeyri-neft sektorunun inkişafını sürətləndirəcək, ölkənin ixrac coğrafiyasını genişləndirəcək, iqtisadiyyatın şaxələndirilməsini sürətləndirəcək, məşğulluğun artırılmasına mühüm töhfə verəcək.

***AZƏRTAC***

## "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46 (Cild I); 2024, № 6 (I kitab), maddə 651) dəyişiklik təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 aprel 2025-ci il**

**Prezident İlham Əliyevin Çinə dövlət səfəri, orada keçirdiyi görüşlər, imzalanmış dövlət sənədləri, o cümlədən İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri və onun ikitərəfli münasibətlərin inkişafı baxımından oynadığı müstəsna rol Ermənistanda böyük ajiotaj yaradıb. Hay ictimai-siyasi industriyasının bu ajiotaj fonunda üzərində dayandığı bir sıra məqamlar var.**



# Azərbaycan–Çin, Bakı–Tehran: İrəvanda əndişə var



Əvvəla, hiss olunur ki, erməni siyasilər Azərbaycanın Çinlə münasibətlərinin qlobal aspektlərini yetərincə dəyərləndirirlər. Çin dünyanın super güclərindən biri kimi, özünün, belə demək mümkünsə, iqtisadi ekspansiyasının genişlənməsində maraqlıdır. Ancaq maraq klassik imperialist yanaşmalardan uzaqdır. Əlbəttə, bu, heç də o demək deyil ki, rəsmi Pekin öz qarşısına həmin yanaşmalardakı elementləri çıxarmağa çalışan qüvvələrə qarşı səssiz qalacaq...

Qlobal dünyaya bərabərtərəfli münasibətlər pəncərəsindən baxmağı prioritet hesab edən Çin Azərbaycana etibarlı tərəfdaş kimi yanaşır və bu cəhət ölkəmizin dünyada oynadığı rola yüksək qiymətin nümunəsidir.

Nəzərə alaq ki, Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş imicinə malikdir və Pekində bunu çox gözəl dərk edirlər. Ona görə ölkəmizin vacib saydığı prinsiplər Çin üçün də keçərlidir və bunun təsdiqi baxımından həm aprelin 23-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın, həm də ötən il iyulun 3-də Astanada Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində qəbul olunmuş "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin məzmununa diqqət yetirmək kifayətdir.

Bəli, hər iki sənəd Çin üçün Azərbaycanın necə böyük önəm daşıdığını göstərir və Ermənistan siyasilərini narahat edən həm də budur. Onlar aprelin 23-də imzalanmış bəyanatı önəm trayektoriyasının davamlılıq faktoru kimi qiymətləndirirlər. Ən əsası isə hay ekspertlər gedişatın rəsmi İrəvanın erməni avantürizminin diri saxlanılması üçün irəli sürdüyü "Dünyanın kəsişməsi" ideyasına zidd mahiyyət daşıdığını anlayırlar.

Hazırda Azərbaycan–Çin əməkdaşlığı Ermənistana, obrazlı desək, böyük su borusunda dəlik açıb oradan qidalanmaq fürsəti vəd edir. Ancaq tipik erməni xəstəliyi rasional düşünməyə imkan vermədiyindən, hay siyasilər, xüsusən, hakim komandaya yaxın politoloq və ekspert cameəsinin təmsilçiləri dövriyyəyə tamam başqa məqamları gətirməyə çalışır, fərqli gündəm formalaşdırmağa səy göstərirlər. Onlar rəsmi İrəvanın "Dünyanın kəsişməsi" avantürasını Çinin "Bir kəmər, bir yol" ideyasının reallaşdırılması baxımından mühüm məsələ kimi önə çəkir, mövcud istiqamətdə özlərinin yarımçıq təfəkkürlərinin mücərrəd guşəsində bəslədikləri elementləri sadalayırlar. Hər bir halda, gətirdikləri arqumentlər Azərbaycanın Bakı–Pekin əməkdaşlığının fundamentallığındakı rolunu arxa plana keçirmək baxımından əhəmiyyətsizdir. Ən əsası ona görə ki, "Dünyanın kəsişməsi" müasir iqtisadi mühitə klassik erməni yanaşmasının məhsuludur. Əksinə, burada Ermənistanın özünün ümumi prosesə heç bir töhfəsi yoxdur. Bu yanaşmada, habelə, dünyanın erməni toplumuna, bir növ, borclu olduğuna dair sərsəmlik var. Yəni, erməni siyasi baxışı belədir: Dünya Ermənistadan keçməlidir ki, ermənilər yaşasınlar, onlar özləri isə bu yaşayış üçün heç nə etməsinlər. Hər halda, qlobal müstəvidə bu cür müftəxorluğa yerin olmadığı məlumdur.

*

İkinci məqama keçid alaq. Ermənistanda çox yaxşı dərk edirlər ki, Azərbaycan–İran əməkdaşlığı, mahiyyət etibarilə, böyük coğrafiyanın bir-birinə həm iqtisadi, həm də mənəvi tellərlə bağlılıq amplitudası kimi çoxşaxəli struktura malikdir. Erməni varlığı mövcud müstəvidə heç zaman təmsil olunmayıb, həmişə ayrı-ayrı qüvvələrin aləti rolunda çıxış edib. Müvafiq surətdə, hansısa müstəqil resurs əldə edə bilməyib.

Ermənistan özünün avantürizmi ilə normal iqtisadi münasibətlərin üzərindən xətt çəkib. Hesab edirik ki, ölkənin nisbətən düşünməyi bacaran beyinləri durumun fərqindədirlər. Amma yenə də klassik avantürizm hadisə və proseslərə sağlam pəncərədən baxmağa əngəl törədir. Nəticədə erməni siyasilər yalnız Azərbaycan və İran arasındakı artıq keçmişdə qalmış soyuqluğa köklənir, həmin keçmişin ayrı-ayrı fraqmentlərini qabardırlar ki, Bakı və Tehran arasında etimadsızlıq yaransın, üfüqdə görünən daha böyük əməkdaşlıq xəttinin qarşısı alınsın.

Erməni siyasi düşüncə sisteminin Azərbaycan–İran münasibətlərinin hazırkı yüksək fazasına xələl gətirmək niyyətinin daha bir göstəricisi ölkəmizin İsraillə dostluğunu qabartmaqdır. Əslində, bunun önə çəkilməsi də hay siyasilərin kasadlığının göstəricisidir. Elə təəssürat yaranır ki, bu kütlər yığınının təmsilçiləri Azərbaycanın indiyədək tutduğu yolun, yeritdiyi siyasətin mahiyyətini anlamırlar. Məsələn, onlar dərk etmirlər ki, ölkəmiz bütün konturları dəqiq müəyyənləşdirilmiş balanslı siyasət yürüdür və bu siyasət heç bir ambisioz xarakter daşımadığından, dünya birliyi rəsmi Bakının mövqeyini səmimi qarşılayır. Baxın, Azərbaycanın ABŞ-la da münasibətləri yaxşıdır, Rusiya ilə də. Həmçinin, ölkəmiz Türkiyə ilə də dostluq və qardaşlıq içərisindədir, İsraillə də tarixi dostluq ənənələrini qoruyur. Deməli, belə bir şəraitdə Azərbaycanın İsraillə yaxınlığına görə ölkəmizin İranla əlaqələrinə dair mənfi rəy formalaşdırmaq, ən əsası cəfəngiyyata söykənib, sərsəm fikirlər ortaya atmaq təkcə gülüş doğurmur, göz önündə son dərəcə miskin və rəzil mənzərə canlandırır.

*

Nəhayət, Ermənistanın Azərbaycan–İran və Azərbaycan–Çin münasibətləri baxımından siyasi qısqanclıq xəttinini doğuran ümumi məqamlar üzərində dayanaq. Məlumdur ki, Bakının Pekin və Tehranla əməkdaşlığı, xüsusilə Orta Dəhliz (Çin–Mərkəzi Asiya–Qafqaz–Türkiyə–Avropa) və Şimal–Cənub nəqliyyat dəhlizi layihələri çərçivəsində genişlənir. Bu dəhlizlər Azərbaycanın regional əhəmiyyətini artırır, Ermənistan isə mövcud marşrutlardan kənarda qalır. İrəvanda bunu ciddi düşünməli, iqtisadi və logistik təcriddən qurtuluş avantürizmə qurban verilməməlidir.

Digər tərəfdən, hay düşüncə mərkəzləri anlamalıdırlar ki, Azərbaycanın Çin və İranla geniş ticarət və enerji layihələri, xüsusilə nəqliyyat və logistika sahəsində əməkdaşlığı nəzəri baxımdan daha rentabellidir. Çünki həm Pekində, həm də Tehranda Bakı ilə əlaqələrin sərmayə və iqtisadi üstünlüklər qazandırdığının fərqindədirlər. Yaxşı olar ki, Ermənistan rəhbərliyi ölkəni bu inkişafa meyilli xətdən məhrum vəziyyətə salmasın.

Daha bir məqama nəzər salaq. Azərbaycan geosiyasi tərəfdaşlıqlar və təhlükəsizlik məsələləri baxımından da Çin və İran üçün mühüm məntəqədir. Çinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi baxımından göstərdiyi israr indinin söhbəti deyil. İran Prezidenti Məsud Pezeşkianın Bakıda çox açıq tekstlə bildirdiyi fikirlər, xüsusən, dövlət başçısının Qarabağın Azərbaycana məxsusluğunu dönmədən vurğulaması isə yenilik kimi qiymətləndirilə bilər.

Üstəlik, İranın ali təmsilçisi paytaxtımızda, faktiki olaraq, Azərbaycanın Naxçıvana yol məntiqinin qlobal tranzit əhəmiyyətini vurğulayan fikir bildirdi. Bu, o deməkdir ki, rəsmi Tehran Pekinin dəstək verdiyi nəhəng kommunikasiya habında yer almaq fikrindədir. Ortada maraqlı durum var. Sanki Ermənistana yemək üçün nə isə verirlər, haylar bundan imtina edir, İran məsələyə etiraz bildirmir. Belədə Ermənistanın təcriddə qalması qətiləşir. Təcrid durumunda isə hay iqtidarının ölkənin ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişesini müqəddəsləşdirməsinin heç bir önəmi qalmır. Çünki ac-yalavac ölkənin müstəqilliyindən danışmaq qaranlıq otaqda qara pişik axtarmaq kimi bir şeydir.

*

Sonda ümumiləşdirmə apararaq gəldiyimiz nəticə də budur ki, Ermənistan qaranlıq otaqda qara pişik axtarışından uzaq dayanmalıdır. Bunun üçün ölkə Azərbaycanın şərtlərini yerinə yetirib sülh müqaviləsi imzalamalı, ən başlıcası isə ölkəmizin regional kommunikasiyaların açılması baxımından irəli sürdüyü formulu qəbul etməli, konstruktiv davranmalıdır. Bir sözlə, Bakı–Tehran, Bakı–Pekin yüksəksəviyyəli əməkdaşlığının motivləri Ermənistan üçün siqnal olmalıdır. Əks halda, nəinki pişik, üstəlik, ölkənin gələcəyi üçün qaradan başqa rəng tapılmayacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Çoxvektorlu diplomatiya müstəvisinə keçid

*(əvvəli 1-ci səhifədə)*

Xüsusilə, qeyd olunmalıdır ki, bu münasibətlərin davamlı və strateji istiqamətlərindən biri də beynəlxalq və regional təşkilatlar çərçivəsindəki əməkdaşlıqdır. Məhz bu çərçivədə tərəflər fərqli mövqelərə malik olsalar belə, müəyyən ortaq platformalarda bir araya gələrək dialoq, anlaşma və siyasi koordinasiya üçün zəmin yaradırlar. Çoxtərəfli təşkilatlar İran və Azərbaycanın beynəlxalq münasibətlər sistemində bir-biri ilə münasibətlərini tənzimləmək,



maraqlarını uyğunlaşdırmaq və regional güc balansında öz mövqelərini möhkəmləndirmək üçün mühüm vasitəyə çevrilmişdir. İslam Əməkdaşlıq Təşkilatı (İƏT), D-8 İnkişafda Olan Ölkələr Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və Asiya üzrə Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə ... İran–Azərbaycan münasibətlərinin təhlili üçün aktual və kompleks kontekstdir. Sözügedən qurumlar vasitəsilə ikitərəfli münasibətlərin regional təhlükəsizlikdən tutmuş enerji diplomatiyasına, iqtisadi əməkdaşlıqdan mədəniyyətlərarası dialoqa qədər uzanan geniş spektri formalaşır.

İslam Əməkdaşlıq Təşkilatı 1969-cu ildə yaradılmış və əsas məqsədi müsəlman ölkələri arasında həmrəylik və əməkdaşlığı gücləndirmək olan beynəlxalq platformadır və 57 üzv dövlətin iştirakı ilə dünyanın ikinci ən böyük hökumətlərarası qurumu hesab olunur. İran və Azərbaycan müsəlman dünyasında mühüm geosiyasi və mədəni mövqeyə malik ölkələr kimi, İƏT-in fəaliyyətində fəal iştirak edən dövlətlər sırasındadır. Hər iki ölkə bu təşkilatın siyasi, iqtisadi, humanitar və mədəni layihələrində təmsil olunaraq öz milli maraqlarını qorumaqla yanaşı, İslam ölkələri arasında əməkdaşlığı dərinləşdirmək istəyində olduqlarını bəyan edirlər.

İran–Azərbaycan münasibətləri kontekstində İƏT-in xüsusi yeri var. Təşkilat hər iki ölkə üçün bir dialoq və konsensus platforması rolunu oynayır. Xüsusilə, Azərbaycan üçün İƏT onun beynəlxalq hüquqa əsaslanan ərazi bütövlüyünün tanınması və müdafiəsi baxımından mühüm diplomatik vasitə olmuşdur. Qarabağ münaqişəsi kontekstində İƏT-də qəbul olunmuş sənədlər birmənalı şəkildə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəkləmiş, işğalın pislənməsi və beynəlxalq hüququn aliliyinin qorunması çağırışlarını ehtiva etmişdir. Qeyd edə bilərik ki, İƏT çərçivəsi iki ölkə tərəflərin ortaq platformalarda təmaslarını davam etdirməsi üçün mühüm vasitədir.

Həm İran, həm də Azərbaycan İƏT-in yalnız siyasi deyil, həm də iqtisadi və mədəni formatlarını aktiv şəkildə istifadə etməyə çalışırlar. Xüsusilə İslam ölkələri arasında ticarət həcminin artırılması, elm və təhsil sahəsində mübadilələrin genişləndirilməsi baxımından təşkilat çərçivəsində keçirilən sammitlər, nazirlər səviyyəsində toplantılar və ekspert qrupları vasitəsilə tərəflər arasında birbaşa təmasların davam etməsi diplomatik münasibətlərin tamamilə pozulmasının qarşısını alır və gələcəkdə əməkdaşlıq imkanlarının açıq qalmasını təmin edir.

D-8 1997-ci ildə Türkiyənin təşəbbüsü ilə yaradılmış və əsas məqsədi üzv müsəlman ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirmək olan bir platformadır. Təşkilata İran, Türkiyə, Pakistan, Misir, Nigeriya, Banqladeş, İndoneziya və Malayziya daxildir.



Keçən il Azərbaycanda D-8-in üzvü seçilmişdir. İran üçün D-8 iqtisadi blokada və beynəlxalq sanksiyalar fonunda iqtisadi əməkdaşlıq və ticarət mübadiləsini genişləndirmək üçün alternativ platforma rolunu oynayır. Azərbaycan isə regionda iqtisadi və enerji mərkəzi kimi formalaşmaq istədiyindən D-8 üzvü olan ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq imkanlarını daim diqqət mərkəzində saxlamışdır. D-8-in əsas strateji xətti iqtisadiyyat olsa da, onun vasitəsilə geosiyasi təsirlər də formalaşır. İran bu təşkilat daxilində öz mövqeyini iqtisadi tərəfdaş kimi möhkəmləndirməyə çalışır. Xüsusilə, Orta Dəhliz və Şimal–Cənub nəqliyyat marşrutları kontekstində İran və Azərbaycan arasında iqtisadi və tranzit əməkdaşlığı D-8 çərçivəsində digər üzv ölkələr üçün də nümunə ola bilər. Azərbaycanın logistika potensialı İranın bazarlara çıxış imkanları ilə uzlaşdırıldıqda, bu əməkdaşlıq həm ikitərəfli, həm də regional inteqrasiyanı gücləndirə bilər.

Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) 2001-ci ildə Çin və Rusiyanın liderliyi ilə Orta Asiya regionunda təhlükəsizlik, iqtisadi əməkdaşlıq və regional sabitliyi dəstəkləmək məqsədilə yaradılmış beynəlxalq təşkilatdır. Hazırda təşkilatın üzvləri sırasında Çin, Rusiya, Hindistan, Pakistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və 2023-cü ildən etibarən tam hüquqlu üzv olmuş İran yer alır. Azərbaycan isə ŞƏT-in dialoq tərəfdaşı statusuna malikdir. İran üçün ŞƏT-ə üzv olmaq Qərb təzyiqlərindən kənarda, xüsusilə Çin və Rusiya kimi güclü tərəfdaşlarla regional və qlobal səviyyədə əməkdaşlıq imkanlarını artırmaq deməkdir. Bu kontekstdə, Azərbaycanla münasibətlər İran üçün vacib geosiyasi və geoiqtisadi komponent daşıyır. Azərbaycanın Cənubi Qafqazda sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri baxımından oynadığı rol ŞƏT-in gələcək regional siyasətində də önəmli yer tuta bilər.

Azərbaycanın ŞƏT-in dialoq tərəfdaşı kimi fəaliyyəti bu qurum çərçivəsində İranla əməkdaşlıq imkanlarını daha çevik və strateji əsasda inkişaf etdirməyə şərait yaradır. ŞƏT-in ilkin əsas vəzifələrindən biri olan terrorizmə, ekstremizmə və separatizmə qarşı birgə mübarizə məsələləri İran və Azərbaycan arasında dialoq və məlumat mübadiləsini inkişaf etdirir. İran və Azərbaycan sərhəd qonşuları olaraq bu istiqamətdə əməkdaşlığı təşkilat çərçivəsində genişləndirə bilər. İran ŞƏT vasitəsilə Orta Asiyaya və Avrasiya bazarlarına çıxışını gücləndirməyə çalışır. Azərbaycanın ərazisindən keçən Orta Dəhliz və Şimal-Cənub nəqliyyat marşrutları bu baxımdan ŞƏT-in logistika və enerji strategiyalarına mühüm töhfə verir. Azərbaycanın enerji resursları və İranın regional tranzit rolu ŞƏT çərçivəsində enerji təhlükəsizliyi gündəliyində birgə layihələr üçün zəmin yaradır.

ŞƏT həm də diplomatik platforma kimi İran və Azərbaycanın fikir mübadiləsi aparması, regional təşəbbüsləri müzakirə etməsi və qarşılıqlı etimadı bərpa etməsi baxımından vacibdir. Xüsusilə, ikinci Qarabağ müharibəsindən sonra regionda dəyişən geosiyasi balans ŞƏT daxilində İran və Azərbaycanın dialoquna yeni məzmun və vaciblik qazandırmışdır. Tehran və Bakı arasında yaranan gərginliklərin diplomatik müstəviyə keçirilməsi və qarşılıqlı anlayışın dərinləşdirilməsi ŞƏT kimi çoxtərəfli formatlar vasitəsilə daha səmərəli ola bilər.

Asiya Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) – Asiya ölkələri arasında etimadın gücləndirilməsi və təhlükəsizliyin təmin olunması məqsədilə 1992-ci ildə Qazaxıstanın təşəbbüsü ilə yaradılmış çoxtərəfli təhlükəsizlik platformasıdır. Hazırda 27 üzv dövlət və 9 müşahidəçi qurum bu platformada təmsil olunur. Azərbaycan 2002-ci ildən, İran isə 1999-cu ildən təşkilatın tamhüquqlu üzvləridir. AQEM-nin məqsədi Asiyada qarşılıqlı etimadı və əməkdaşlığı gücləndirmək, regional təhlükəsizlik və sabitlik üzrə müzakirə üçün dialoq meydanı yaratmaqdır və platforma çərçivəsində İran və Azərbaycan arasında əməkdaşlıq təhlükəsizlik, enerji, iqtisadiyyat, nəqliyyat, mədəniyyət və humanitar sahələri əhatə edir.




İran və Azərbaycan Asiyanın Qərb cinahında yerləşən iki qonşu ölkə kimi təşkilatın əsas prinsiplərinə – qarşılıqlı hörmət, ərazi bütövlüyü, qeyri-müdaxilə və dinc yanaşı yaşama–uyğun olaraq əməkdaşlıq etməyə çalışır. Təşkilat çərçivəsində həyata keçirilən etimad tədbirləri sərhədlərin sabitliyi və regionda sülhün dəstəyi baxımından mühüm əhəmiyyət daşıyır. İran və Azərbaycan bu platformada iştirak edərək, birbaşa ikitərəfli məsələləri daha geniş regional kontekstdə müzakirə edə bilirlər ki, bu da münasibətlərdə gərginliklərin azaldılmasına töhfə verir. İran və Azərbaycan arasında zaman-zaman yaşanan diplomatik gərginliyə baxmayaraq, bu təşkilat çərçivəsində aparılan dialoqlar iki ölkənin "yumşaq diplomatiya" və "etimad quruculuğu" kimi anlayışlardan istifadə etməsinə imkan verir.

İƏT, D-8, ŞƏT və Asiya Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə kimi platformalarda tərəflərin iştirakı və bu təşkilatlar daxilindəki fəaliyyətləri göstərir ki, rəsmi Bakı və Tehran qarşılıqlı maraqlar əsasında çoxvektorlu siyasət yürütməyə çalışırlar.

Hüquqi baxımdan isə istər tövsiyə xarakterli qərarların imzalanması, istərsə də diplomatik forumlarda iştirak İran və Azərbaycan arasında beynəlxalq hüquqa əsaslanan qarşılıqlı öhdəliklərin formalaşmasına xidmət edir ki, bu da ikitərəfli münasibətlərin daha proqnozlaşdırıla bilən və institusional əsaslara söykənən müstəviyə keçməsinə imkan yaradır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# “Amnesty International” və erməni avantürizminə xidmət

## *Yaxud insan hüquqları ilə alverin primitivliyi*




**“Amnesty International” hüquq müdafiə təşkilatı yenə Azərbaycana qarşı qərəz püskürüb. Bəri başdan deyək ki, qərəz ermənipərəstlikdən qaynaqlanır. Ancaq təşkilatın hazırkı anti-Azərbaycan “fəallığı” ümumi oyunun tərkib hissəsidir. Oyunda məqsəd Ermənistana Azərbaycanla sülhə gəlməmək üçün bəhanələr verməkdən, İrəvanın mövqeyinə haqq qazandıracaq beynəlxalq ictimai rəy formalaşdırmaqdan ibarətdir. Təxminən belə: insan hüquqlarını heçə sayan Azərbaycanla keçinmək mümkünsüzdür, habelə Bakı sülh müqaviləsinin imzalanmasını istəmir.**

Ölkəmiz barış mühitinin təminatlı olmasında israrlıdır. Bu təminatda ərazi iddiası motivinə fürsət verilməməlidir. Ermənistanın isə çalışdığı budur ki, barış sazişi həmin motiv saxlanılmaqla imzalansın. Ona görə rəsmi İrəvan Bakının şərtlərini qəbul etmir. Söhbət hansı şərtlərdən gedir, onların da üzərində dayanacağıq. İndi isə onu bildirək ki, Ermənistan rəhbərliyi vaxt uzadır, üstəlik, ölkə sürətli silahlanma yolunu tutub. Mövcud durumda “Amnesty International”ın ermənipərəst dəst-xətti rəsmi İrəvanın bu mövqeyini də müdafiə etməkdir. Ancaq təşkilat tək deyil. Azərbaycana qarşı qurulmuş oyunun başqa fiqurları da var, böyük məqsədi də. Ən böyük məqsədi sonda diqqətə çatdıracağıq.

**

Bəli, başlıca predmeti insan hüquqları olan oyun çox sadə konfiqurasiyaya malikdir. Sual yaranır: Necə olur ki, “Amnesty International” hüquq müdafiə təşkilatı ilə eyni vaxtda ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında dinləmələr keçirilir, iclas zamanı vurğulanır ki, Azərbaycan, guya, insan hüquqlarının pozulmasına görə məsuliyyətdən yayınır və bunun üçün Ermənistanla sülh prosesindən istifadə edir. Fikri bildirən Demokratiyanın İnkişafı üzrə Milli Fond deyilən təşkilatın Rusiya və Avrasiya proqramının direktoru Miriam Lanskayadır. O Miriam Lanskaya ki, vaxtilə Ermənistanın geosiyasi vəziyyəti, həmçinin Qərblə münasibətləri barədə fikirlərini bölüşmüş, ölkənin Avropa İttifaqı və ABŞ ilə əlaqələrini gücləndirməsinin vacibliyini vurğulamış, aşkar ermənipərəstliyini pərdələmək üçün Cənubi Qafqazda güc balansının dəyişməsinin potensial təhlükələrinə diqqət yönəltmişdi. Yəni o, faktiki olaraq, Bakının hərbi baxımdan İrəvanı üstələməsinin yolverilməzliyini əsaslandırmağa çalışmışdı. İndi isə bu xanımın sözlərindən belə çıxır ki, COP29 ölkəmiz üçün lütf imiş, lakin Azərbaycan durumu düzgün qiymətləndirmədi və Ermənistanla sülh müqaviləsini imzalamadı.

Xatırladaq ki, COP29 zamanı da hazırda bütün müddəaları üzrə ortaq məxrəcə gəlinmiş barış sazişinin bəndləri razılaşdırılmamışdı. Deməli, prinsip etibarilə, COP-la sülhü əlaqələndirmək düzgün deyil. Amma M.Lanskaya bunu edir və bildirdikləri ilə kifayətlənməyərək vurğulayır ki, Bakını İrəvanla sülhə gətirmək ABŞ-ın sabiq administrasiyasının Azərbaycana münasibətini müəyyən edən əsas amil olub və guya, bunun nəticəsində Birləşmiş Ştatlar rəhbərliyi ölkəmizdə insan hüquqları və demokratiya məsələlərinə qarşı yumşaq yanaşma ortaya qoyub. “Təəssüf ki, indiyədək gördüklərimiz əsasında bu yanaşmanın nə məhbusların azad edilməsinə, nə məhdudlaşdırıcı qanunların islahına, nə də sülh sazişinin bağlanmasına səbəb olduğunu demək mümkündür. Əksinə, biz jurnalistlərin, alimlərin və fəalların yeni həbslərinin şahidiyik. Görürük ki, sülh danışıqları sadəcə olaraq uzadılır”, – deyən M.Lanskayanın Birləşmiş Ştatların sabiq rəhbərliyinə ünvanlanmış nankorluğu heyrət doğurur. Məsələ ondadır ki, ABŞ tarixində Ermənistanın müdafiəsini başlıca hədəfə çevirmiş, bu məqsədlə ən primitiv üsullardan belə çəkinməyən ikinci iqtidar komandası olmayıb. Belə getsə, lanskayalar Bayden – Blinken tandeminin haylara zərər vurduğunu da deyə bilərlər. Onlardan hər cür həyasızlıq gözləmək olar.

**

Əlqərəz, hazırda M.Lanskaya və “Amnesty International” eyni hədəfə vurmaqla məşğuldur. İkinci bir qədər də “irəli” gedir və hesabatında bildirir ki, Azərbaycan Qarabağın erməni əhalisinə qarşı insan hüquqlarını pozduğuna görə məsuliyyətə cəlb olunmalı imiş, ancaq bu baş verməyib. “Hələ də Dağlıq Qarabağ bölgəsi ətrafındakı münaqişə zamanı yol verilmiş hüquq pozuntularına görə cəzasızlıq hökm sürür” kimi fikirlərin yer aldığı hesabatda vurğu Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı səs hüququndan məhrum edilməsi üzərinə qoyulur. Yəni, “Amnesty International”ın qabartdığı başlıca məqam budur: Azərbaycan AŞPA-da səs hüququndan ölkədə insan hüquq və azadlıqlarına etinasız yanaşdığı üçün məhrum edilib. Etinasız yanaşmanın isə Qarabağ erməniləri təmayülü mövcuddur.

“Amnesty International” hesabatında bildirib ki, “AŞPA 2023-cü ilin sentyabrında Azərbaycanın keçirdiyi hərbi əməliyyatı yenidən pislədi”. Söhbət ölkəmizin reallaşdırdığı və öz konstitusion quruluşunu, ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyi lokal xarakterli antiterror tədbirlərindən gedir: “Bu əməliyyat nəticəsində Dağlıq Qarabağın 100 mindən çox olan bütün etnik erməni əhalisi Ermənistana köçmək məcburiyyətində qaldı. Onların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmaq hüququ isə nəzərə alınmadı”.

*

Göründüyü kimi, insan hüquqları ilə manipulyasiya Qərbin müxtəlif dairələrinin ermənipərətliyində yenə xüsusi çəkiyə malikdir. Elə rəsmi İrəvanın özü də dəfələrlə belə manipulyasiyalara əl ataraq reallıqdan uzaqlaşmaq istəyib. Yeri gəlmişkən, bu meyil 44 günlük müharibədən əvvəl də nəzərə çarpıb. Həmin vaxt özünü dünyaya demokrat kimi göstərən baş nazir Nikol Paşinyan və onun komandasının üzvləri ölkəmizin, guya, anti-demokratik yolda olduğunu qabardıblar. Bu sərsəm ritorika sözügedən komandanın 2018-ci ilə qədərki sülh danışıqlarını pozması üçün başlıca istinadgaha çevrilib.

O zaman N.Paşinyanın səsləndirdiyi fikirlərdən belə nəticə hasil olmuşdu ki, sanki demokratik qlamurlaşma dövrünü yaşayan Ermənistanın “avtoritar Azərbaycanla” müzakirəsini aparacağı heç nə olmamalıdır. Ardınca Nikolun “Qarabağ Ermənistandır və nöqtə!” bəyanatını, onun komandasındakı müdafiə nazirinin “Yeni ərazilər uğrunda yeni müharibə!” şüarını, 44 günlük müharibədə isə hayların qışqır-bağırlarını eşitdik. Savaş günlərində erməni iqtidar düşərgəsinin, ümumən siyasi sisteminin başını itirməsinə də şahidlik etdik.

*

Bəli, İkinci Qarabağ müharibəsi Ermənistan üçün fəlakətli durum formalaşdırsa da, rəsmi İrəvan bundan nəticə çıxarmadı. Paşinyan administrasiyasının yaratdığı fon Azərbaycanı qeyri-demokratik ölkə kimi göstərməyə hesablandı. Müvafiq olaraq, rəsmi İrəvan xarici aləmdən Qarabağ ermənilərı üçün beynəlxalq təminat istəməyə girişdi. Nikol və komandasının üzvləri müharibədən əvvəl Ermənistanın işğalçılıq siyasətini demokratiya pərdəsi altında gizlətməyə çalışdıqları kimi, savaşdan sonra da eyni yolu tutdular. Bu dəfə məqsəd Qarabağ amili ilə ölkəmizin yurisdiksiyasını heçə saymaq oldu.

Başqa sözlə desək, rəsmi İrəvan Azərbaycana ünvanlanmış avtoritar ölkə “təqdimatları” ilə Qarabağ erməniləri üçün elə bir beynəlxalq təminatı əldə etməyə çalışdı ki, həmin təminatın köməyi ilə bölgə təxminən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə bənzəsin, obrazlı ifadə etsək, ölkəmizin içinə qoyulmuş bomba saxlanılsın.

*

Əslində, indi də Ermənistan rəhbərliyinin və onun xaricdəki havadarlarının baxışlarında dəyişən heç nə yoxdur. Azərbaycan isə əvvəldə də vurğuladığımız kimi, sülh üçün təminat istəyir və bu baxımdan iki şərt irəli sürür. Məlum olduğu kimi, bu şərtlərdən birincisi referendum yolu ilə Ermənistan konstitusiyasının işğalçı mahiyyət daşıyan İstiqlaliyyət bəyannaməsinə istinaddan qurtulması, ikincisi isə ATƏT-in canını tapşırmış Minsk qrupuna, belə demək mümkünsə, “ölüm şəhadətnaməsinin” alınmasıdır.

Rəsmi Bakı sözügedən təsisatın Qarabağ münaqişəsinin tənzimlənməsi, əslində, işğalı leqallaşdırmaq xəttinin mövcudluğunu və bu xəttin gələcəkdə konflikti alovlandırmaq üçün mexanizm rolu oynaya biləcəyi ehtimalını dərk etdiyindən, onun rəsmən ləğvi tələbini irəli sürür və bildirir ki, Ermənistan Azərbaycanla birlikdə bunun üçün müvafiq müraciət ünvanlamalıdır. Lakin qarşı tərəf məsələnin belə qoyuluşu ilə razı deyil və hazırda lanskayaların, habelə, “Amnesty International” kimi insan hüquqları ilə möhtəkirlik yolu tutan qurumların ortaya düşmələri məhz İrəvanın maraq və mənafelərini qorumağa hesablanıb. Bu qütb var gücü ilə Azərbaycanın Ermənistanla, guya, sülhdən yayındığını vurğulamağa girişib.

Tam əminliklə deyə bilərik ki, Qarabağ ermənilərinin bölgəyə təhlükəsiz qayıdışı və bu məsələdə ölkəmizin qeyri-demokratik ölkə kimi təqdimatı sözügedən təminatın beynəlxalq mexanizm obrazını vurğulamağa hesablanıb. Mövcud xəttin Ermənistan rəhbərliyinin patronajlığı altında həyata keçirilməsi şübhəsizdir. Əslində, rəsmi İrəvanın sülhdən yayınması da elə budur. Bu, həmçinin Paşinyan administrasiyasının Azərbaycanın irəli sürdüyü iki şərti yerinə yetirməmək naminə göstərdiyi “fəaliyyətin” tərkib hissəsidir. Bu “fəaliyyətdən” məqsəd ölkəmizi ərazi iddiası məsələsinin açıq qalacağı sülh müqaviləsinə razı salmaqdır. Yəni mahiyyətcə, Qarabağ ermənilərinin bölgəyə qayıdış məsələsini aktuallaşdırmaq “tutar qatıq, tutmaz ayran” məntiqindən qaynaqlanmır.

Nikol və tərəfdarları, eləcə də onların xaricdəki havadarları hesab edirlər ki, Azərbaycanı sülh gündəminə qayıdış məsələsinin daxil oluna bilinəcəyi ilə şantaj etmək və beləliklə ölkəmizi prinsiplərindən döndərmək mümkündür. Nəzərə alaq ki, hazırkı durumda sülh müqaviləsinin imzalanması baxımından Azərbaycanın iki şərtini kənara qoymaq, Qarabağ ermənilərinin geri qayıdışı ritorikasını da aktiv saxlamaq, bu ritorikaya perspektiv qazandırmaq, böyük anlamda isə Qarabağ avantürasını diri tutmaq deməkdir.

*

Sonda onu da bildirək ki, rəsmi İrəvanın və dəstəkçilərinin qurduqları oyun məhvə məhkumdur. Çünki Azərbaycan primitv gedişləri görür və həmişəki kimi, mövqeyində israrlıdır. Ölkəmizin şərtlərini yerinə yetirməmək, habelə sürətli silahlanma xətti tutmaq və sərhəd insidentləri yaratmaq, o cümlədən, lanskayaları, “Amnesty International” kimi qərəz platformalarını meydana atmaq isə Ermənistan üçün son dərəcə zərərlidir. Zərərin müxtəlif aspektləri üzərində dayanmaq mümkündür. Ancaq buna ehtiyac duymuruq. Təkcə onu bildirək ki, Paşinyan administrasiyası rəsmi Bakının İrəvana münasibətdə hiss etmədiyi etimadı bir qədər də dərinləşdirdiyinin fərqinə varmalıdır. Əlbəttə, lanskayaların və Azərbaycana qarşı qərəz püsgürən qurumların hesablatlarından həvəslənib illüziyaya qapılmasa.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–İran media münasibətləri: DÜNƏN VƏ BU GÜN

**İran Prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasına səfəri çərçivəsində imzalanan sənədlər sırasında media sahəsində əməkdaşlıq məsələsi də yer tutur. Aprelin 28-də “Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında media əməkdaşlığı haqqında Anlaşma Memorandumu” mübadilə edilib.**

Məlumat üçün bildirək ki, iki ölkə arasında media müstəvisində münasibətlərin inkişaf etdirilməsi təşəbbüsləri həmişə aktual olub. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ötən 30 il müddətində bu yöndə effektiv təşəbbüslər göstərib. Bu təşəbbüslər 2016-cı ildə iki ölkənin media strukturları arasında əməkdaşlıq memorandumunun imzalanması ilə yüksək səviyyəyə çatıb. 2016-cı ilin noyabr ayında Azərbaycan Mətbuat Şurası ilə İran İslam Respublikasının Mədəniyyət və İslam İrşadı Nazirliyinin Mətbuat və İnformasiya Departamenti arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənəd həmin dövrdə MŞ sədri, Milli Məclisin deputatı olan Əflatun Amaşovun və İranın Mədəniyyət və İslam İrşadı Nazirinin müavini Hossein Entezaminin imzası ilə qüvvəyə minib.

10 maddədən ibarət olan həmin sənəddə qeyd edilirdi ki, imza müəllifləri öz ölkələrində fəaliyyət göstərən media orqanlarını ikitərəfli əməkdaşlıq qurmağa, xəbərlər, şəkillər, hesabatlar daxil olmaqla, öz məhsullarının qarşılıqlı mübadiləsini həyata keçirməyə təşviq edəcəklər. Sənəddə informasiya nümayəndəliklərinin fəaliyyətə başlamasına dəstək göstərilməsi, texniki əməkdaşlıq məsələlərinin reallaşdırılması, birgə media layihələrinin gerçəkləşməsi, qarşılıqlı jurnalist səfərlərinin təşkili və digər məsələlər əksini tapıb.



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

İnformasiya manipulyasiyalarından qorunmaq üçün birgə səylərin göstərilməsi vurğulanıb.

Təəssüf ki, Azərbaycan tərəfindən gündəmə gətirilən rasional təkliflər, irəli sürülən təşəbbüslər, adətən, qarşı tərəfdən qeyri-rasional münasibətlə qarşılanıb. İranın rəsmi qurumları tərəfindən yürüdülən yanlış siyasət, həmçinin İran mediasının qeyri-adekvat addımları iki ölkə arasında münasibətlərin inkişafına deyil, pozulmasına xidmət edib. Əməkdaşlıq üçün imzalanmış müqavilələrə laqeyd yanaşılıb. İran mediası nəinki informasiya manipulyasiyalarından yayınmaq üçün Azərbaycana dəstək verməyib, əksinə, birmənalı olaraq, Azərbaycana qarşı dezinformasiya yayan mərkəzlərin sırasında yer tutub. Belə yanlış münasibət II Qarabağ müharibəsi dönəmində, 2023-cü ildə gerçəkləşdirilən 1 günlük anti-terror əməliyyatları fonunda daha bariz formada diqqət çəkib. Hesablamalara görə, həmin dövrdə İranın müxtəlif strukturlarının təşəbbüsü ilə təqribən 300-dən artıq sosial şəbəkə profilləri, həmçinin KİV qurumları yaradılmış, Azərbaycan dilində təxribatçı informasiyalar yayılması təşkil edilmişdir. Bu barədə 2022-ci ildə hazırladığımız yazıda: “İranın təbliğat və təxribat fəliyyətində yeni elementlər” başlığı ilə dərc edilən məqaləmizdə detallı bilgi vermişik.

İranın media mənsubları, dövlətin media siyasətini həyata keçirən şəxslər nəzərə almalı idilər ki, Azərbaycanla İran arasında münasibətlərin inkişafı zərurəti təkcə xalqlarımız arasındakı mədəni yaxınlığa oxşar, adət-ənənəyə söykənmir. Bu zərurət həm də dünyada baş verən proseslərin regiona təsirindən qaynaqlanır.

Dünyanın müxtəlif qütblərində yer tutan media nəhəngləri dünya düzəninə yön verirlər. Əksər hallarda onlar ikili standartlarla davranırlar, yanlış rəy formalaşdırırlar. Bu cür yanlış münasibətlə təkcə Azərbaycan Respublikası deyil, İran dövləti də üzləşir. Həmin transmilli media korporasiyalarının ümumilikdə, İslam dünyasına baxışları problemlidir, neqativ tendensiya mövcuddur, islamofobiya vardır. Bu yanlış tendensiyanı yalnız vahid güclə, birgə təşəbbüslə ram etmək mümkündür. 2016-cı il müqaviləsinin preambula hissəsində qeyd edilir ki, “Media prinsip etibarilə siyasətdən uzaqdır. Ancaq dünyanın nəhəng media korporasiyaları da siyasətdən uzaq olduqlarını bəyan edərək dünyanın siyasi gündəminə təsir göstərirlər. Ümumən İslam coğrafiyası barədə düşünülmüş şəkildə yanlış, neqativ rəy formalaşdırırlar. Biz mövcud istiqamətdə fikir mübadiləsi aparmalıyıq, konkret nəticələr əldə etməliyik”.

Bu gün İranda baxış sistemi dəyişibmi? Qonşu dövlətin uyğun strukturları ilə media, informasiya sahəsində əməkdaşlıq üzrə sənədlərin razılaşdırılması həm Azərbaycan, həm İran, həm də ümumilikdə, regionumuz üçün vacibdir. Belə ki, yaşadığımız dövrdə dünya düzəni yenidən tərtib edilir və təəssüf ki, bu proses mübahisəsiz, münaqişəsiz ötüşmür. Böyük güc mərkəzləri dünyanın istənilən nöqtəsində öz maraqlarını təmin etmək üçün münaqişələr, müharibələr törədə bilirlər. Bu kontekstdə ictimai fikri çaşdırmaq, şəxsi maraqlarını diktə etmək üçün informasiya manipulyasiyalarına yol verir, dezinformasiyalar yayır, xalqları, dövlətləri üz-üzə qoya bilirlər. Yaranmış durum informasiya işinə həssas, diqqətli yanaşma tələb edir. Region əhalisini doğru, düzgün məlumatlarla təmin edilməsi üçün informasiyanın ilkin mənbədən, həm də operativ şəkildə alınması zərurəti yaranır. İnformasiya məsələləri üzrə əməkdaşlıq müqavilələrinin, anlaşma memorandumlarının olması bu kontekstdə mühüm əhəmiyyət daşıyır.




Məsələnin digər tərəfi ondan ibarətdir ki, Azərbaycan və İran xalqları tarixən bu regionda yaşamış, mədəni, mənəvi, dini birliyi olan xalqlardır. İran İslam Respublikasında bizim on milyonlarla soydaşımız yaşayır. Tarixi köklərə dayanan əlaqələrimizin bu gün yeni dövrün çağırışlarına uyğunlaşdırılması zərurəti ortaya çıxır. İnformasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsi bu konterklstdə də önəmlidir.

Bu və digər faktları nəzərə alaraq, demək olar ki, “Medianın İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında media əməkdaşlığı haqqında Anlaşma Memorandumu”nun imzalanması mühüm əhəmiyyət daşıyır. Güman edirik ki, bu sənədin xalqlarımız arasında mehriban qonşuluğun yaranmasında mühüm rolu olacaqdır.

# Ceyhun Bayramovun Küveyt görüşləri





**Aprelin 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Küveyt Dövlətinə rəsmi səfəri çərçivəsində bu ölkənin Vəliəhdi Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah ilə görüşüb.**

Görüş zamanı Azərbaycan–Küveyt ikitərəfli və çoxtərəfli əməkdaşlığının müxtəlif aspektləri, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.

İki ölkə arasında mövcud siyasi dialoqun səviyyəsindən məmnunluq ifadə edilib, ali və yüksəksəviyyəli səfər və təmasların daha da artırılmasının əhəmiyyəti vurğulanıb. Xarici İşlər nazirlikləri arasında baş tutan siyasi məsləhətləşmələrin əməkdaşlıq üçün potensial sahələrin müəyyən olunması baxımından faydalı olduğu diqqətə çatdırılıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, Azərbaycanın növbəti ildə İƏT-ə sədrliyi çərçivəsində birgə fəaliyyət məsələlərindən bəhs edilib.

Vəliəhd Şeyx Sabah Xalid əl-Həməd əl-Sabah BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı ölkəmizə səfərini və Prezident İlham Əliyev ilə baş tutan görüşünü xatırlayaraq, aparılan müzakirələr zamanı ölkələrimiz arasında xüsusilə iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, turizm kimi istiqamətlər üzrə əməkdaşlığın inkişafı məsələlərinə vurğu edildiyini diqqətə çatdırıb.

Bu baxımdan, Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Birgə Komissiyanın keçiriləcək iclasının vacibliyi qeyd olunub.

*

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Küveyt Dövlətinin xarici işlər naziri Abdullah Ali Al-Yahya ilə də görüşüb.

Görüşdə Azərbaycan–Küveyt əməkdaşlığının siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji, nəqliyyat, kommunikasiyalar, humanitar aspektləri, turizm əlaqələrinin inkişafı, Yaxın Şərqdə mövcud təhlükəsizlik vəziyyəti, habelə postmünaqişə dövründə regional reallıqlar müzakirə olunub.

Ölkələrimiz arasında mövcud dostluq və qardaşlığın tarixi, mədəni və dini ortaqlıqlara əsaslandığı, hər iki ölkənin liderləri arasında mövcud siyasi dialoqla daha da möhkəmləndiyi vurğulanıb. Eyni gündə keçiriləcək Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 3-cü iclasının ölkələrimiz arasında müxtəlif sahələr üzrə praktiki əməkdaşlığın inkişaf etdirilməsi üzrə səmərəli nəticələr verəcəyinə dair inam ifadə edilib.

Regional və beynəlxalq təşkilatlar çərçivəsində sərgilənən qarşılıqlı dəstək və həmrəyliyin, bir-birinin ərazi bütövlüyü və suverenliyinə hörmətin təqdirəlayiq olduğu vurğulanıb. Bu çərçivədə, digər beynəlxalq təşkilatlarla yanaşı, Körfəz Əməkdaşlıq Şurası ilə geniş əməkdaşlıq perspektivlərindən bəhs olunub.

Ceyhun Bayramov, həmçinin qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət barədə ətraflı məlumatlandırıb.

*

Azərbaycanla Küveyt arasında ikitərəfli əlaqələrin gücləndirilməsi üzrə qarşılıqlı öhdəliklər çərçivəsində, bir tərəfdən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, digər tərəfdən Küveyt Dövlətinin xarici işlər naziri Abdullah Əli Əl-Yəhyanın sədrliyi və hər iki ölkənin nümayəndələrinin iştirakı ilə aprelin 30-da Küveytdə Azərbaycan Respublikası və Küveyt Dövləti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 3-cü iclası keçirilib.

İclasın əsas məqsədi Azərbaycanla Küveyt arasında ikitərəfli münasibətlərin bütün səviyyələrdə gücləndirilməsi və möhkəmləndirilməsi olub. Bu münasibətlər qarşılıqlı hörmət və maraqlara, eləcə də qarşılıqlı əhəmiyyət kəsb edən məsələlər üzrə əlaqələndirmə işinin təşkilinə əsaslanır. İki ölkənin hökumətləri arasında mövcud olan Əməkdaşlıq üçün Birgə Komissiya müştərək iqtisadi prioritetlərin və uzunmüddətli əməkdaşlığın gücləndirilməsi istiqamətində davamlı dialoq platformasını təşkil edir.

Azərbaycan və Küveyt tərəfi iki dost ölkə arasında əlaqələrin uzunmüddətli inkişafını, qarşılıqlı maraq kəsb edən sahələrdə, xüsusilə enerji, ticarət, investisiya, infrastruktur, yüksək texnologiyalar, nəqliyyat, kənd təsərrüfatı, qida təhlükəsizliyi, təhsil, səhiyyə, turizm, media və idman sahələrində əməkdaşlığın gücləndirilməsi üçün ortaq baxışların mövcudluğunu, eləcə də ikitərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində konkret addımların atılmasının və işlərin koordinasiyasının əhəmiyyətini vurğulayıblar.

Komissiya əlavə tədbirlərin görülməsi vasitəsilə ticarət dövriyyəsinin artırılması, iqtisadi əməkdaşlığın inkişafına nail olmaq, müştərək sənaye və texnologiya təşəbbüslərinə dəstək vermək, Azərbaycan və Küveyt arasında ticarət mübadiləsinin asanlaşdırılması üçün logistik xidmətləri təkmilləşdirmək barədə razılığa gəlib.

Küveyt tərəfi Azərbaycan tərəfini BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu ev sahibliyinə görə təbrik edib, bütün dünyadan geniştərkibli nümayəndələrin iştirakı ilə Azərbaycanın belə mühüm beynəlxalq tədbirə ev sahibliyi etməsinin onun beynəlxalq səviyyədə xüsusi yerinin və qabaqcıl rolunun göstəricisi olduğunu vurğulayıb, habelə konfransın uğuru üçün əlverişli şəraitin yaradılması istiqamətində təşkilatçılıq tədbirlərini alqışlayıb.

Azərbaycan–Körfəz əməkdaşlığı müstəvisində, Azərbaycan Körfəz Əməkdaşlıq Şurasının cari sessiyasına sədrlik edən Küveytin səylərini yüksək qiymətləndirib. Tərəflər sözügedən məsələlər çərçivəsində əməkdaşlıq və 2024–2028-ci illər üzrə Körfəz Əməkdaşlıq Şurası–Azərbaycan Respublikası birgə iş planını həyata keçirmək niyyəti ilə çıxış ediblər.

Regional və beynəlxalq müstəvidə diqqət tələb edən bir çox məsələlər nəzərdən keçirilib, beynəlxalq təhlükəsizlik və sülhə nail olmaq istiqamətində fəaliyyətə dəstək göstərməyin əhəmiyyəti, münaqişələrin BMT nizamnaməsi və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq həllinin vacibliyi vurğulanıb. Azərbaycanın və Küveytin bir-birinin suverenliyini, ərazi bütövlüyünü dəstəkləməklə bağlı öhdəliklərinə sadiq olduqları bir daha diqqətə çatdırılıb.

Azərbaycan Respublikası və Küveyt Dövləti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın 3-cü iclasının işinin sonunda iclasın təsdiq olunmuş protokolu, ona nəzarət mexanizmləri, onun əlavələri - növbəti iki il üçün müştərək yol xəritəsi imzalanıb.

Yekunda tərəflər Birgə Komissiyanın 4-cü iclasının 2027-ci ildə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi barədə razılığa gəliblər.

***XQ***

# Karvan keçib – hay-küy isə kəsilmir...

## “Kollektiv Qərb”in anti-Azərbaycan “çete”si yenə su bulandırır

**Son zamanlar Qərbin Azərbaycana qarşı müxtəlif cinahlardan aqressiv ideoloji hücumları müşahidə olunmaqdadır. Bu hücumda iştirak edən qüvvələrin xarakteri və coğrafiyasına diqqət yetirəndə belə təsəvvür yaranır ki, onlar ölkəmizə qarşı əsl “səlib yürüşü”nə start veriblər. Arxa planda, “kollektiv Qərb”in anti–Azərbaycan ritorikasının arxasında isə Cənubi Qafqazda erməni avantürizmini səngiməyə qoymamaq, onu daim diri saxlamaq niyyəti gizlənir.**

Artıq keçmişdə qalmış metodlarını yenidən dövriyyəyə buraxmağa çalışan Avropa Komissiyası, Avropa Şurası Parlament Assambleyası, eləcə də Fransanın və hərdən ABŞ Konqresindəki haypərəst parlamentarilərin timsalında “kollektiv Qərb” “yeni dünya” vədləri ilə müstəqil dövlətçilik təməlləri üzərində öz yollarını gedən ölkələrə təsir mexanizmlərini sınaqdan çıxarmaqdan yorulmurlar. Özünün bütün təsir imkanlarından məhrum duruma düşmüş Qərb dünyası ənənəvi “üsullara” əl atmaqdadır. Guya, Azərbaycanda söz və ifadə azadlığı pozulur, sərbəst toplaşmaq imkanı yoxdur, ölkə həbsxanalarında siyasi məhbuslar var, müxalif fəallara qarşı repressiv metodlar tətbiq edilir və sair. Yəni son beş ildə dəfələrlə təkrarladıqları cəfəngiyyatları gündəmə gətirmək cəhdləri. Belə cəfəngiyyatların içində Bakı həbsxanalarında “qeyri-qanuni saxlanılan erməni məhbuslar” da var.

### Haypərəstlərin imperialist iddiaları

Anti-Azərbaycan kampaniyalarda daha çox fəallıq göstərən bu təşkilatlar fəaliyyətlərində bu kimi qeyri-hüquqi, qeyri-demokratik xətdə israrlı olduqca əsl mahiyyətini ortaya çıxarır – Fransanın özünüifşası kimi. Necə ki, Fransa Senatı açıq şəkildə separatizmə dəstək verərək özünün müstəmləkəçi mahiyyətini ifşa etdi, adıçəkilən təşkilatlar da Azərbaycanın hüquqi addımlarını özünəməxsus dəyərləndirmələrlə maraqlarının sərhədlərini ortaya qoydular. Bu zaman nə Avropa Parlamenti, nə AŞPA, nə də ABŞ Konqresindəki haypərəst qrupun Ermənistanı səmimi şəkildə dəstəkləmədikləri hamıya məlumdur. Sual yaranır: Nədən Qarabağı könüllü tərk etmiş ermənilərin üzərindən özlərinin korporativ maraqlarını təmin etməyə çalışan bu “çete” 30 il ərzində Ermənistanın təcavüzü nəticəsində doğma yurdlarından didərgin salınmış, etnik təmizləməyə məruz qalmış 1 milyon azərbaycanlıya münasibətdə ögey davrandılar? Bəs, haypərəst düşərgənin yenidən fəallaşması nəyə hesablanıb? Birmənalı olaraq deyə bilərik ki, Azərbaycanın regionda güclənməsi, siyasi, iqtisadi, hərbi qüdrətə malik olması, bölgədə baş verən proseslərin əsas tənzimləyicisinə çevrilməsi “kollektiv Qərb”in imperialist maraqları ilə üst-üstə düşmür. Amma bu da faktdır ki, Avropanın bir çox dövlətləri artıq “böyük güclər”in imperialist oyunlarının iştirakçısı olmaqdan imtina edirlər. Nəinki imtina edir, onlar Avropa İttifaqı, Avropa Parlamentinin, AŞPA-nın və bu kimi təsisatların Cənubi Qafqaza yönəlik ikiüzlü siyasətini ifşa edirlər.

Bakıya səfərində Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi üzrə danışıqların başa çatmasını alqışlayan və tərəfləri süräti qoruyub saxlamağa və bütün prosesin rahat başa çatmasını təmin etməyə çağıran, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin perspektivi barədə pozitiv açıqlamalar verən Aİ-nin Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasa edilən hücumlar da bunun təsdiqidir.

Daha təhdid dilinin işə yaramadığını, bölgədə və dünyada formalaşmış yeni reallığı anlamaq istəməyən bu “çete” anti–Azərbaycan təbliğatına yeni nəfəs verməyə çalışır. Yeni dünya nizamına təsir imkanları daralan AŞPA, Brüssel, Fransa, eləcə də onlar kimi düşünənlər çapalamaqda davam edirlər. Amma təbiətdə olduğu kimi, cəmiyyətdə də çapalayanları daha tez batmaq aqibəti gözləyir.

### Hüquq komissarının hüquqdan xəbəri yoxdur

Azərbaycana qarşı təşkil olunmuş “ideoloji xorun” bir solisti də Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Maykl O’Flahertidir. Bu üzdəniraq hüquqşünas iki gün əvvəl Azərbaycanda aparılan bəzi istintaq işləri, habelə bu yaxınlarda verilmiş məhkəmə qərarları ilə bağlı əsassız və qərəzli bəyanatlar səsləndirib. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Maykl O’Flahertinin bəyanatına şərhində onun bu yersiz, haylara yarınmaq jestini ölkəmizin daxili işlərinə və məhkəmə proseslərinə müdaxiləsini növbəti uğursuz cəhd kimi qiymətləndirib. Milli qanunvericiliyə və beynəlxalq öhdəliklərə uyğun olaraq, Azərbaycanda insan hüquq və əsas azadlıqlarına təminat verildiyini və onlara tam hörmət edildiyini cənab komissarın nəzərinə çatdıran A.Hacızadə bu hüquq və azadlıqların öz vəzifələrini müstəqil şəkildə yerinə yetirən köklü məhkəmə




institutları tərəfindən qorunduğunu bildirib. Ardınca XİN rəsmisi Azərbaycanın öz suveren ərazilərində qanunun aliliyinə qoyduğu təminatın bəzi şəxslərə xüsusi imtiyazın vermədiyini, habelə onları ölkə qanunlarının tələblərinə riayətdən azad etmədiyini vurğulayıb.

Bundan başqa, A.Hacızadə şərhində AŞ-ın insan hüquqları üzrə komissarının bəyanatında adları çəkilən şəxslərə qarşı müvafiq qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması ilə bağlı ittihamların heç bir fakt və sübuta əsaslanmadığını, Cinayət-Prosessual Məcəlləyə ciddi riayət edilməklə müvafiq araşdırmalar aparıldığı, onların məhkəmə qarşısında bütün hüquqlarının tam təmin edildiyi bildirilib. O, Maykl O’Flahertini Azərbaycanın müstəqil məhkəmə orqanlarında davam edən araşdırmalara müdaxilə etməkdən, habelə qəbuledilməz təzyiq göstərmək cəhdlərindən çəkinməyə, əvəzində isə diqqəti bir sıra digər AŞ ölkələrində insan hüquqları sahəsində mövcud çoxsaylı problemlərə, artan islamafobiyaya, miqrantlara və sığınacaq axtaran şəxslərə qarşı ləyaqəti alçaldan rəftara, siyasi təqiblərə, həbsxanalarda baş verən ölüm hallarına, Avropa institutlarında geniş yayılmış korrupsiyaya və s. fokuslanmağa çağırıb.

### Şvabenin qərəzi

AŞPA-nın Almaniyadan olan təmsilçisi Frank Şvabe ölkəmizdə “məşhur” personadır. Onun Azərbaycan əleyhinə etdiyi çıxışları, verdiyi bəyanatları barədə əvvəllər də yazmışıq. Sakit durmayan Şvabe növbəti dəfə ölkəmizin ünvanına absurd ittihamlar səsləndirib. O, “Azadlıq” radiosuna müsahibəsində iddia edib ki, guya, Azərbaycan AŞPA-da təmsilçiliyə ciddi əhəmiyyət verdiyini desə də, əməldə bunun əksini edir. Alman deputat Azərbaycanın öhdəliyi yerinə yetirməyəcəyi təqdirdə nümayəndə heyətinin mandatının bərpasının mümkünsüz olacağını söyləyib. Bu məqamda haylardan əxz etdiyi ikiüzlülüyü işə salan Şvabe ləkələdiyi imicini təmizləmək üçün, guya, Azərbaycanı, onun xalqını sevdiyini, Ermənistandan rüşvət almadığını dilə gətirməkdən utanmır. AŞPA-nın başqa ölkələrlə müqayisədə Azərbaycana münasibətdə daha sərt qərar verə biləcəyini deyən alman deputat “Azərbaycan parlamentində real müxalifət” olmasını istəyir. Amma bu zaman real müxalifət dedikdə kimləri nəzərdə tutduğunu açıqlamır.

Frank Şvabe artıq neçənci dəfədir absurd açıqlamaları ilə gündəmə gəlir. Əslində, onun məsuliyyətsiz açıqlamaları nə diplomatik etiketə sığır, nə də deputat statusuna yaraşır. Azərbaycana düşmən mövqeyi ilə seçilən alman deputat erməni lobbisinin qonorarı müqabilində ölkəmizə qarşı şər–böhtan kampaniyasının önündə yer alır. Belələrinin qulluq göstərdiyi düşərgəni narahat edən Azərbaycanın bölgədə güc və söz sahibi olması, ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, münaqişə ocağını birdəfəlik söndürməsidir.

### Məsuliyyətdən qaçan kimdir?

“Azərbaycan məsuliyyətdən yayınmaq üçün Ermənistanla sülh prosesindən istifadə edir”. Bunu aprelin 29-da ABŞ Konqresinin Tom Lantos İnsan Haqları Komissiyasında dinləmələr zamanı Demokratiya üçün Milli Fondun Rusiya və Avrasiya proqramının direktoru Miriam Lanskaya bildirib. Konqresdəki ermənipərəst “çete”nin üzvü olan “ictimai-siyasi xadim” Lanskaya ant–Azərbaycan “səlib cəbhəsi”nin fəal üzvlərindən biridir. Konqresdəki çıxışında rəsmi Bakını COP-29-dan əvvəl sülh sazişini imzalamaqdan yayınmaqda suçlayan xanım Lanskayanın sözlərinə görə, Ermənistanla münaqişəyə son qoymaq istəyi Bayden administrasiyası dövründə ABŞ-ın Azərbaycana yönəlik siyasətini formalaşdırıb. Yəni, bu, Azərbaycanda insan haqları və demokratiya məsələlərinə yumşaq yanaşma üzərində qurulubmuş. Bəzi konqresmenlər kimi hay təbliğatının küyünə düşmüş proqram direktoru “siyasi məhbus”, “hərbi əsir” adlandırdığı, Bakıda məhkəməsi davam edən erməni əsilli təqsirləndirilən şəxslərin “azadlığa çıxmalarının” vacibliyindən danışıb. Yəqin ona məhkəmədə nümayiş etdirilən və keçmiş “dqr” liderlərinin cinayət əməllərini sübuta yetirən danılmaz sübutları, video-görüntüləri göndərmək lazımdır. Amma beyni hay nağılları ilə yuyulmuş birisinə bunun təsir edəcəyini söyləmək çətindir.

Məsuliyyət məsələsinə gəldikdə isə, ondan qaçanın real sülhdən yayınmaq üçün Qərblə Şərq arasında vurnuxanın Bakı deyil, İrəvanın olduğunu “unudan” xanım Lanskaya Konqresdəki dinləmələrdə Azərbaycanın ünvanına çeşidli uydurmalar səsləndirməklə gündəmi dəyişməyə çalışmasının səbəbi bizə məlumdur: hayların ideoloji dəyirmanına su tökmək.

Bəli, Avropa Parlamentinin, AŞPA-nın riyakar deputatları, ABŞ Konqresində haylara lobbiçilik edənlər köhnə mərəzlərindən əl çəkmək istəmir, hələ də işğalçını işğala məruz qalan kimi göstərməkdə davam edirlər. Bəlkə də Ermənistan nə vaxtsa demokratik ölkəyə çevrilə bilər, amma, bu, onun üzərindən işğalçı damğasının götrüləcəyinə dəlalət etməyəcək. Aydın məsələdir ki, Qərb AP-dən, AŞPA-dan, Fransadan və ya ABŞ Konqresindəki haypərəstlərdən ibarət deyil. Bu gün Cənubi Qafqazda Azərbaycanın memarı olduğu yeni reallıq şillə kimi onların üzünə çırpılır. Əgər bu ermənipərəst düşərgə yanlış yolun yarısından geri qayıtmasa, çoxdan uzaqlaşmış karvanın arxasınca çığırmaqdan bezməsə, şillə “dəmir yumruğ”a çevriləcək.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan sadiq dost, mehriban qonşu, mötəbər tərəfdaşdır



**Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindən biri də qonşu dövlətlərlə münasibətlərin inkişaf etdirilməsidir. Torpaqlarımızın 20 faizini 30 ilə yaxın işğal altında saxlayan, soydaşlarımızı qətlə yetirən, məcburi köçkünə çevirən, işğalçılıq dövründə ərazilərimizdə daşı daş üstə qoymayan Ermənistan istisna olmaqla bütün qonşularla yaxşı münasibətlərimiz mövcuddur.**

Təbii ki, qonşu ölkələrlə, ümumiyyətlə, dünya dövlətləri ilə əlaqələrindən söz düşəndə ilk növbədə Azərbaycan–Türkiyə münasibətlərindən bəhs edilməlidir. Bu da təsadüfi deyil. Çünki Türkiyə Azərbaycanın ən yaxın müttəfiqidir. Dünyada əlaqələri bu dərəcədə inkişaf etmiş ölkələr tapmaq çətindir. Türkiyə Azərbaycanın müstəqilliyini 1991-ci il noyabrın 9-da tanıyıb. Bununla da qardaş ölkə birinci olub. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il yanvarın 14-də qurulub. Türkiyənin Bakıdakı səfirliyi 1992-ci ilin yanvar ayında, Azərbaycanın Ankaradakı diplomatik nümayəndəliyi isə həmin ilin avqust ayında açılıb.

Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi üzərində qurulmuş müasir Azərbaycan–Türkiyə münasibətləri öz müstəsnalığı ilə fərqlənir və hərtərəfli strateji müttəfiqlik kimi səciyyələndirilir. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət kimi Türkiyə ilə ikitərəfli əlaqələrin bütün sahələr üzrə hərtərəfli inkişafı Azərbaycan xarici siyasətinin hər zaman prioriteti olub. Ulu öndərin Azərbaycan–Türkiyə əlaqələrinin genişləndirilməsi ilə bağlı müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə münasibətlərimiz özünün ən parlaq dövrünə qədəm qoyub.

Əlbəttə, Türkiyə ilə münasibətlərdən söz düşəndə qardaş ölkənin Vətən müharibəsi dövründə ölkəmizə verdiyi siyasi və mənəvi dəstək xüsusi qeyd edilməlidir. Həmin günlərdə Ankaradan Bakıya nazirlərin, digər rəsmi şəxslərin etdikləri ardı-arası kəsilməyən səfərlər, onların Bakıda verdikləri dəstək bəyanatları bizə mənəvi güc verirdi. Həmin səfərlər Azərbaycan dövlətinə və xalqına həmin günlərdə "siz tək deyilsiniz!" ismarıcını verirdi. Eyni zamanda, Türkiyə hansısa güclərin mümkün təxribatları qarşısında çəkindirici amil idi.

Münasibətlərin yüksəlişində Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasında yaranmış, qarşılıqlı hörmət və etimada, eləcə də qardaşlıq münasibətlərinə əsaslanan fəal siyasi dialoqun da müstəsna rolu var. Bu məqam iki ölkə arasında bütün sahələrdə yaxın iş birliyini şərtləndirən və ciddi nailiyyətlərin əldə olunmasını təşviq edən əsas faktor kimi çıxış etməkdədir. Hazırda Azərbaycan–Türkiyə münasibətlərində ciddi əməkdaşlıq və nailiyyətlərin müşahidə edilmədiyi heç bir sahə mövcud deyil. Azərbaycan–Türkiyə ikitərəfli əlaqələrinin inkişafında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr, iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya, parlamentlərarası dostluq qrupu və digər platformalar əhəmiyyətli rol oynayır. Bu formatlar çərçivəsində keçirilən mütəmadi görüşlər və yüksək səviyyəli qarşılıqlı səfərlər müttəfiqlik səviyyəsinə yüksəldilmiş əlaqələrimizin inkişaf dinamikasını saxlanılması prosesinə öz müstəsna töhfəsini verir.

Azərbaycanın digər qonşusu – Rusiya ilə münasibətlər də dinamik şəkildə inkişaf etməkdədir. Ölkəmiz Rusiya ilə münasibətlərə böyük əhəmiyyət verir və bu münasibətlərin bütün istiqamətlər üzrə genişlənməsində və dərinləşməsində maraqlıdır. Hazırda Azərbaycan–Rusiya əlaqələri strateji tərəfdaşlıq səciyyəsi daşıyır. Çoxşaxəli ikitərəfli əməkdaşlıq dinamikası sürətlə gedir. Bu çərçivədə 2022-ci il fevralın 22-də Prezident İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" xüsusi qeyd olunmalıdır. Sənəd ikitərəfli münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə çıxarıb və əlaqələrimizin daha da genişləndirilməsi üçün yeni imkanlar yaradıb.

Gürcüstanla əlaqələrimiz də inkişaf etməkdədir. Bu əlaqələr qədim tarixi köklərə bağlıdır. Azərbaycan–Gürcüstan münasibətləri uğurlu inkişaf yolu keçərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Ölkəmiz Gürcüstanla ikitərəfli əlaqələrinə xüsusi əhəmiyyət verir. Eyni zamanda, Gürcüstan Azərbaycanın, necə deyərlər, Avropaya açılan qapısıdır. Bizim bir sıra mühüm iqtisadi layihələrimiz Gürcüstan ərazisindən keçir. Bakı–Tbilisi–Ceyhan, Cənub Qaz Dəhlizi kimi mühüm enerji layihələri Avropanın enerji təhlükəsizliyinə töhfə verir, Bakı–Tbilisi–Qars dəmir yolu isə Şərq və Qərb arasında qısa və səmərəli alternativ bağlantı yaradır.

Əməkdaşlığın dərinləşməsində və genişlənməsində Bakı ilə yanaşı, Tbilisi də maraqlıdır. Gürcüstanda 2024-cü il oktyabrın 26-da keçirilən parlament seçkilərinin nəticəsində "Gürcü arzusu" Partiyasının qalib gəlməsindən sonra əlaqələrimizdə müsbət dinamika hiss edilməkdədir. Təsadüfi deyil ki, Gürcüstanın baş naziri İrakli Kobaxidze seçkilərdən sonra ilk xarici səfərini yanvarın 17-də ölkəmizə edib. Parlament seçkilərindən sonra baş nazirin ilk səfərini Azərbaycana həyata keçirməsi, təbii ki, Azərbaycan–Gürcüstan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Ümumiyyətlə, Azərbaycan Prezidenti və Gürcüstan Baş naziri arasında görüşlər müntəzəm xarakter alıb. Gürcüstan Baş naziri 2024-cü ildə iki dəfə – martın 16-da və noyabrın 11-də Bakıya səfər edib. Birinci səfər rəsmi səfər olub. İkincisi isə COP29-da iştirak məqsədi daşıyıb.

Cənub qonşumuz İranla münasibətlər də ölkəmiz üçün mühüm əhəmiyyət daşıyır. Xalqlar arasında tarixi və mədəni bağlılıqlar əlaqələrin inkişafında öz sözünü deyir. Bu bağlılıqlar iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə inkişafı üçün zəmin yaradır. Hazırda ikitərəfli əlaqələrimiz ticari-iqtisadi, enerji, energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı, humanitar və digər sahələr üzrə inkişaf edir. Ölkələrimiz arasında regional və beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində də əməkdaşlıq davam edir.

Bakı Tehranla münasibətlərə hər zaman xüsusi əhəmiyyət versə də, əvvəlki İran hakimiyyəti bunu lazımınca qiymətləndirmədi. Nəticədə münasibətlərdə eniş baş verdi. 2023-cü il yanvarın 27-də Tehrandakı səfirliyimizə qarşı terror aktı törədildi. Bundan əlavə, İranın əvvəlki hakimiyyətinin ölkəmizlə bağlı bir sıra yanlış addımlarına rast gəldik. Prezident İlham Əliyev 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına müsahibədə İranla münasibətlər barədə müfəssəl açıqlama verdi. Dövlətimizin başçısı bildirdi ki, əvvəlki hakimiyyətlə münasibətlərimizin pisləşməsi yenə də bizim günahımız ucbatından olmayıb. "Sadəcə olaraq, bəzi məqamları xatırlatmaq istəyirəm..." deyən cənab İlham Əliyev münasibətlərin düşdüyü durumun səbəblərini açıqladı.

İndi isə İranla münasibətlərdə yeni səhifə açılır. Prezident Məsud Pezeşkianın aprelin 28-də ölkəmizə etdiyi rəsmi səfərin əlaqələrin inkişafına töhfə verəcəyi şübhəsizdir. Tehranla əlaqələrin möhkəmləndirilməsi və münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxması üçün hər hansı manеə mövcud deyil. Əlaqələrin möhkəmləndirilməsi üçün tarixi imkanın yarandığını da əminliklə söyləyə bilərik.

*Səxavət HƏMİD*
*XQ*

## Ekspert rəyi



***Fikrət SADIXOV,***
***Qərbi Kaspi Universitetinin professoru, politoloq:***

– Azərbaycanla İranı tarixi dostluq telləri bağlayır. Xalqlarımız arasında həmişə qardaşlıq, qarşılıqlı anlaşma münasibətləri olub. Bu, Prezident İlham Əliyev və Prezident Məsud Pezeşkian arasında keçirilən görüşdə xüsusilə qeyd olundu və çox mühüm sabitləşdirici amildir.

Bu gün biz faktiki olaraq Azərbaycanla birgə irimiqyaslı layihələr həyata keçirməyə hazır olan ölkə ilə əməkdaşlıq edirik. Bunlar nəqliyyat kommunikasiyaları, enerji və təhlükəsizliklə bağlıdır. İran Prezidentinin Bakıda olduğu müddətdə çox sayda saziş və müqavilə imzalanıb. Bu, çox vacibdir.

Yəqin ki, Tehran keçmiş hadisələrdən nəticə çıxarıb. Hesab edirəm ki, bu qənaətlər İranla münasibətlərimizdə yeni eranın başlanmasından xəbər verir. İnanıram ki, bu əlaqələr, imzalanmış ikitərəfli sazişlər Azərbaycanla İran arasında sülhə, təhlükəsizliyə, sabitliyə və qarşılıqlı münasibətlərin möhkəmlənməsinə xidmət edəcək.

## Ekspert rəyi



***Yeganə HACIYEVA,***
***Gənc Demokratlar İnstitutunun rəhbəri, siyasi analitik:***

– Günümüzdə formalaşmaqda olan yeni dünya nizamı və bu prosesin regionumuz üçün yaratdığı yeni şərtlər mövcuddur. Bu prosesin önündə gedən ölkə kimi Azərbaycan özünü siyasi, iqtisadi, eyni zamanda, humanitar sahədə məsuliyyətli tərəfdaş kimi sübut edib. Ölkəmiz heç vaxt qonşularına qarşı təhdid formalaşdırmayıb, əksinə hər zaman regionda sülhün və sabitliyin təşviqatçısı, təminatçısı kimi çıxış edib.

Azərbaycan dövləti qəti əmindir ki, yeni dünya nizamı suverenliyin tanınması, heç bir ölkənin daxili işlərinə qarışmamaq, onların daxili sabitliyin pozmamaq kimi vacib prinsiplərə əsaslanmalıdır. Ölkəmizin regional və qlobal xarici siyasət strategiyası bu prinsiplər üzərində formalaşıb.

İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri regional məsələlər və İran ətrafında qlobal narahatedici hərəkətlilik fonunda aktual problemlərin həlli istiqamətində bir imkan kimi dəyərləndirilməlidir. Son illər iki ölkə arasında bir sıra məsələlərdə ciddi fikir ayrılığına baxmayaraq, Azərbaycan–İran münasibətləri hazırda yüksələn xətt üzrə, pozitiv məcrada, intensiv inkişaf edir. Bu səfəri Azərbaycan və İran liderlərinə ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə cari vəziyyətinin genişləndirilməsi, yeni perspektivlər yarada biləcək imkan kimi dəyərləndirməliyik. İki ölkə arasında ticarət, investisiya, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın dərinləşməsinə səbəb olacaq razılaşmaların əldə olunması ilə ölkələrimiz regionda mövqelərinin daha da möhkəmlənməsinə nail ola bilər.

Şübhəsiz ki, iki ölkə rəhbərlərinin görüşünün əsas hissəsi ikitərəfli münasibətlərin inkişaf perspektivləri ilə paralel regional və qlobal gündəlikdəki aktual məsələləri müzakirəsinə də həsr edilib. Xarici siyasət strategiyası ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlıq formatları ilə zəngin olan Azərbaycan İranla təkcə Cənubi Qafqazda deyil, digər təşkilatlar çərçivəsində də əməkdaşlığın inkşafında maraqlıdır.

**"ADNA faciəsi"ndən 16 il ötür**

# Tətikdə Fərda Qədirovun barmağı olsa da, plan düşmənin idi

**Azərbaycanın son otuz ildə qazandığı çoxsaylı uğurların təməlində ulu öndər Heydər Əliyevin iradəsi, Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi və xalqımızın öz dövlətçilik ənənələrinə sədaqəti dayanır. Bu qeydlərimizdə biz uğur və nailiyyətlərimizi sadalamaq istəmirik. Ancaq onu xatırlatmaq vacibdir ki, buraya qədər gəldiyimiz yol heç də hamar, fəaliyyətimiz o qədər də asan olmamışdır.**

Biz dəfələrlə xalqın xilaskarı, ulu öndər Heydər Əliyevin həyatına sui-qəsd cəhdi edildiyinin də şahidiyik, dövlət çevrilişinə cəhdlərin də. Heydər Əliyevin Ukrayna prezidenti ilə birlikdə getdiyi yolda körpünün altına mina qoyulması da danılmaz faktdır, ölkədəki multikulturallıq və tolerantlığın altına yerləşdirilmiş səssiz bombanın təhlükəsizləşdirilməsi də. Mən əsrlərdən bəri azərbaycanlılarla bir ailənin üzvləri kimi yaşamış talışların və ləzgilərin aldadılaraq ayri yola çəkilməsi cədlərini nəzərdə tuturam. Yaxşı ki, onlar xaricdə planlaşdırılmış həmin məkrli planlara uymadılar.

Yaxud bədxahlarımızın ölkədə xaos və anarxiya yaratmaq məqsədilə MTN-in həbsxanasından məhbusları qaçırması, Azərbaycan Mətbuat İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini, "Azərnəşr" və "Yazıçı" nəşriyyatının direktoru işləmiş Əjdər Xanbabayevin, 1989–1992-ci illərdə Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin sədri, Azərbaycan Ali Soveti Sədrinin müavini, Azərbaycan Respublikası Prezidentinin müşaviri vəzifələrində çalışmış Afiyəddin Cəlilovun, Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimovun həyatına qəsd edilməsi bizi bugünkü fərəhli və qürurlu günümüzə gətirən yolların məhrumiyyətlərindən xəbər verir.

Xüsusən, 1995-ci ilin mart hadisələri müstəqillik dövründə tariximizə yazılan ən acı və qorxunc səhifələrdən idi. Çünki o vaxt müstəqilliyimizin möhkəmləndiyini görüb qorxan xarici düşmənlərimiz son və qəti hücuma keçmişdilər. Bunun üçün yerli əlaltılar da tapılmışdı. Uzun müddət benzin, narkotik maddələr, silah alveri və qaçaqmalçılıqla məşğul olan, zaman-zaman ayrı-ayrı vəzifə sahiblərindən dəstək və səlahiyyət alan bədnam OMON qüvvələri müstəqilliyimizə qənim kəsilənlər üçün də əlbədici tərəfdaşlar idi…

Elə 2009-cu il aprelin 30-da Prezident İlham Əliyevi sədaqətlə dəstəkləyən ölkə gəncliyinin gözünü qorxutmaq istəyənlər də yerli əlaltılardan istifadə etmişdilər. Bədxahlarımız düşünürdülər ki, bizə – balalarımıza güllə atan şəxsin öz millətimizdən, canımızdan – qanımızdan olması Azərbaycan gəncliyinin əzmini qıra, qətiyyətini əlindən ala bilərdi. Ancaq belə olmadı...

Həmin faciə haqqında yayılan rəsmi məlumat belə idi ki, 12 nəfərin öldüyü, 13 nəfərin isə yaralandığı kütləvi qətllə nəticələnən faciə 2009-cu il aprelin 30-da Azərbaycan Dövlət Neft Akademiyasının (indi Neft və Sənaye Universiteti – red.) Bakı şəhəri, Dilarə Əliyeva küçəsi, 227 saylı ünvanda yerləşən ikinci korpusunda baş verib. Ali məktəbin binasına daxil olan Gürcüstan vətəndaşı, 1980-ci il təvəllüdlü Qədirov Fərda Əsəd oğlu inzibati binanın birinci mərtəbəsindən altıncı mərtəbəsinədək qarşısına çıxan hər kəsə "Makarov" tipli tapançadan atəş açıb. Nəticədə 12 nəfər ölüb, 13 nəfər isə yaralanıb. Hadisəni törədən şəxs binanın sonuncu mərtəbəsində əlindəki silahla özünü vuraraq intihar edib.

Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət əməliyyat istintaq qrupunun həyata keçirdiyi tədbirlər nəticəsində F.Qədirovla əlaqəli şəxslərin bir çoxu cinayət məsuliyyətinə cəlb olunmuşdu. Kütləvi qətlin sifarişçisinin erməniəsilli Gürcüstan vətəndaşı Mardun Qumaşyan olduğu müəyyənləşdirilmişdi.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu il aprelin 30-da keçmiş Dövlət Neft Akademiyasında baş vermiş faciəli hadisə nəticəsində həlak olanların ailələrinə və ağır xəsarət alanlara maddi yardım ayrılması haqqında sərəncam imzaladı. Sərəncama əsasən, dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan həlak olanların ailələrinə 30 min manat, ağır xəsarət alanlara isə 15 min manat birdəfəlik maddi yardım ayrıldı.

Həmin qanlı faciədən dərhal sonra Azərbaycan Prezidentinə və xalqımıza dərin hüznlə başsağlığı verən dünya siyasətçilərinin önündə Türkiyə Cümhuriyyətinin o zamankı Prezidenti Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğanın adını görmüşdük.

Mən bu faktı yada salarkən "yayılan rəsmi məlumat" ifadəsini təsadüfən xatırlatmadım. Çünki dövlət qurumları ancaq əldə olan faktları, hadisənin nəticələrini deyirlər. Ancaq ekspertlər quru faktlardan başqa özünəməxsus arqumentlər də səsləndirirlər. Məsələn, ziyalı soydaşlarımızdan biri deyir ki, həmin faciənin törədilməsi üçün ADNA-nın seçilməsi təsadüfi deyildi. Çünki orada çoxlu əcnəbi tələbə oxuyub və indi də təhsil alır. Odur ki, səsəri müəllifləri bu faciəni törətməklə Azərbaycanın beynəlxalq aləmdəki nüfuzuna ciddi zərbə vurmaq məqsədi güdürdülər. Nail ola bilmədilər.

Fəxrlə xatırlada bilərik ki, bu gün Azərbaycan regionun ən güclü dövləti, dünyanın isə nüfuzlu aktorlarından biridir. Şükürlər olsun ki, keçdiyimiz yolda bizə badalaq gəlmək istəyənlərin hamısına layiq olduqları yeri göstərmişik. Bundan sonra da belə olacaq.




*İttifaq MİRZƏBƏYLİ*

# Şimal–Cənub Nəqliyyat Dəhlizi ölkəmizi İranla daha da yaxınlaşdırır




## Bu marşrutda son illərdə daşımalar 8 dəfə, ötən il isə 28 faiz artıb

**Prezident İlham Əliyevin "Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Astara (Azərbaycan) – Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər indiyədək 8 kilometrdən çox yeni yol tikilib, Astaraçay üzərində dəmir yolu körpüsü inşa olunub, İran ərazisində yaradılan yük terminalına qədər 1,4 kilometr yol çəkilib.**

İlkin hesablamalara görə, ölkəmiz Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə tranzit yüklərin daşınmasından ildə 2,5 – 3 milyard dollara yaxın vəsait əldə edəcək. Trans – Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi (Orta Dəhliz) ilə daşınmaların davamlı artırılması da dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevriləcək, neft sektorundan sonra nəqliyyatın respublika üçün ən mühüm sahə olduğu konkret rəqəmlərlə də öz təsdiqini tapacaq.

Azərbaycan və İran prezidentlərinin aprelin 28-də mətbuata bəyanatlarla çıxışlarında da sözügedən nəqliyyat dəhlizi barədə ətraflı bəhs edilib. Dövlətimizin başçısının nitqində qonşu ölkə rəhbərinin respublikamıza rəsmi səfəri çərçivəsində üçtərəfli əməkdaşlıq layihələrinin geniş müzakirə olunduğu, onların arasında təbii olaraq Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyəti mövzusunun geniş yer tutduğu bildirilib. Prezident İlham Əliyevin bəyanatında adıçəkilən layihənin bu təşəbbüsə tərəfdar bütün ölkələrə çox böyük səmərə gətirəcəyi, böyük fayda verəcəyi vurğulanıb, eyni zamanda, Azərbaycanın öz ərazisində bu nəqliyyat dəhlizinin fəaliyyəti üçün bütün lazımi infrastruktur layihələrini gerçəkləşdirdiyi diqqətə çatdırılıb.

Azərbaycan lideri daha sonra Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyətinə toxunarkən hazırda artacaq yükləri nəzərə alaraq respublikamızın bu gün nəqliyyat imkanlarını və infrastrukturu genişləndirdiyini, dəniz limanı, dəmir və avtomobil nəqliyyatı istiqamətləri üzrə gözlənilən yük həcmlərini qəbul etmək, eləcə də ötürmək üçün böyük sərmayə qoyuluşu layihələrinə başladığını diqqətə çatdırıb.

Təbii ki, İran Prezidenti Məsud Pezeşkian da bəyanatında Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyəti toxunub və adıçəkilən infrastrukturun önəmini yüksək qiymətləndirib. Qonşu ölkə rəhbəri deyib: "Bütün sahələrdə əməkdaşlıq edə bilərik. Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun. Bunun üçün yolları birləşdirək, maliyyə, ticarət əlaqələrimizi düzəldək, Şimal – Cənub, Şərq – Qərb nəqliyyat dəhlizlərini yaradaq. Bütün bunları qarşılıqlı dəstək sayəsində həyata keçirək. İş adamlarımız birgə istehsal proseslərini həyata keçirsinlər, birgə sərmayələr yatırsınlar, işlər qursunlar".

İran Prezidenti sözlərinə əlavə edərək vurğulayıb ki, biz istehsal, elm, mədəniyyət, iqtisadiyyat, siyasət sahələrində birgə hərəkət etməli, digərlərinə bunları pozmağa imkan verməməliyik. Onlar aramızda ixtilaf yaratmaq istəsələr, buna yol verməyəcəyik. Bizim aramızda bizi birləşdirən çoxlu ortaq amillər, hətta ailə, qohumluq əlaqələrimiz var. Bu, elə bir məsələdir ki, heç kəs bunları poza bilməz.

Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi mövzusu Azərbaycan – İran biznes forumunun gedişində də diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin biznes-forumdakı çıxışında Azərbaycan və İranın, eyni zamanda, önəmli beynəlxalq layihələrdə iştirak etdikləri, o cümlədən Şimal – Cənub Nəqliyyat Dəhlizi üzrə sıx əməkdaşlıq qurduqları bildirilib: "Biz istəyirik ki, bu, sadəcə, nəqliyyat dəhlizi olmasın, həm Azərbaycan, həm də İran ərazisində yol boyunca yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkan yaratsın. Bunun üçün kifayət qədər imkanlar var. Çünki hər iki ölkənin çox böyük iqtisadi potensialı var, hər iki ölkədə sahibkarlar sinfi kifayət qədər fəaldır. Sadəcə olaraq, biz gərək iş adamlarımızı bir araya gətirək, necə ki, bu gün biz bunu edirik".

İran Prezidenti Məsud Pezeşkian çıxışında sözügedən beynəlxalq nəqliyyat dəhlizinin önəmini diqqətə çatdıraraq qeyd edib ki, Azərbaycan və İranın nəqliyyat marşrutlarının kəsişməsində yerləşən ölkələr olaraq aradakı əsas nəqliyyat dəhlizləri və marşrutlarının Şimal–Cənub, eləcə də Şərq – Qərb nəqliyyat infrastrukturu ilə həyata keçirilməsi mümkündür. Belə halda ticarətin, elmin, mövcud təcrübənin və texnologiyanın ötürülməsinə lazımi şərait yaranır.

Prezident Məsud Pezeşkian ölkələrimiz arasında nəqliyyat bağlantısının inkişafı haqqında bəhs edərkən çox maraqlı və həssas bir məqamı da dilə gətirib: "Bizim bir çox qonşu ölkələrin rəhbərləri ilə görüşlərimdə həmişə belə bir ideyanı qaldırmışam və bu, hətta tələbəlik illərimdə də daim beynimdə olub ki, niyə biz birlikdə bir qatara minərək Pakistandan İrana, Azərbaycana, Türkiyəyə, İraqa, Ərəbistana səfər etməyək. Axı, bir-birimizlə bu əlaqələri rahat şəkildə yaratmaq üçün nə problem var ki...".

Qeyd edək ki, 2000-ci ildə Sankt-Peterburqda Rusiya, İran və Hindistan arasında imzalanan müqavilə ilə fəaliyyətinə start verilən Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə Azərbaycan Respublikası 2005-ci ildən qoşulub. Rusiya və Azərbaycanın səmərəli əməkdaşlığı, ikitərəfli iqtisadi münasibətlərin dinamik inkişafı istiqamətində önəmli rol oynayan, Qərbi Avropanı Asiya ilə birləşdirən bu dəhliz ilə daşımaların artırılması, dəhliz boyunca infrastruktur təminatının təkmilləşdirilməsi, sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və digər məsələlər hər iki ölkənin prioritetlərində daim yüksək dəyərləndirilib.

Bu layihənin uğurla reallaşması nəticəsində 2022-ci ilədək yükdaşımaların həcmi 8 dəfə artıb. 2023-cü ildə dəhliz üzrə 9,3 milyon ton yük daşınıb və yük dövriyyəsi 2,5 milyon ton/kilometr təşkil edib. Keçən il isə adıçəkilən dəhlizlə Azərbaycan ərazisindən 814 min ton (əvvəlki illə müqayisədə 28 faiz çox) tranzit yük daşınıb. Ümumiyyətlə, Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi bütün region dövlətləri, o cümlədən qonşu İran üçün də mühüm önəm daşıyır. Bu baxımdan təkcə Rəşt–Astara dəmir yolu həm Rusiya, həm Azərbaycan, həm də İran üçün çox əhəmiyyətlidir.

Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu xəttinin davamı olan Rəşt–Astara xətti İran, Azərbaycan və Rusiyanın dəmir yolu sistemlərini birləşdirəcək. Avropa və Rusiyadan Hindistana və digər Cənub Şərqi Asiya ölkələrinə yüklər məhz bu yolla daşınacaq. Yüklərin əks istiqamətə də bu yolla daşınması neft ixracatçısı olan Rusiya, İran və Azərbaycanın qeyri-neft sektorunun inkişafına təkan verəcək, bu ölkələr logistika mərkəzinə çevriləcək və büdcəyə əlavə valyuta axını təmin olunacaq.

Planlaşdırılmaya əsasən, mühüm önəm daşıyan bu polad magistral Qəzvin – Rəşt-Ənzəli – Astara marşrutu ilə Azərbaycanın dəmir yolu xəttinə qoşulacaq. Bununla da Şimal – Cənub Nəqliyyat Dəhlizi beynəlxalq əhəmiyyətli dəmir yoluna çevriləcək. Çünki İran dəmir yolu xəttinin sözügedən marşrut ilə Azərbaycana birləşməsi ilə Hindistandan Avropanın Helsinki limanınadək olan 5 min 200 kilometrlik dəmir yolu xətti yaranacaq. Bu, təbii ki, beynəlxalq dəmir yolu xətti sayılacaq. Bu birləşmə ilə yüklərin daşınma müddəti 45 gündən 20 günədək azalacaq, məsafə isə, təxminən, 3 min kilometr qısalacaq.

Proqnozlara əsasən, layihənin yalnız birinci mərhələsinin başa çatması İranla Azərbaycan arasında yük daşımalarının 10 dəfəyədək artımını təmin edəcək. Bundan başqa, iki ölkənin dəmir yollarının birləşdirilməsilə mal mübadiləsinin həcmi ildə 5 milyon tonadək artacaq.

...Hələ illər öncə "Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirəcəyik", – deyən dövlət başçısının uzaqgörən, müdrik siyasəti bu gün öz bəhrəsini verməkdədir. Artıq Azərbaycan nəqliyyat – tranzit – logistika xidmətləri ilə nəinki regionun, eləcə də Avropanın aparıcı dövlətinə çevrilir və bu istiqamətdə Şimal – Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi xüsusi önəm daşıyır.

# Dövlət əmlakının gəlirləri çoxalıb

**Ötən il İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin gəlirləri 92 milyon 347 min manat təşkil edib ki, bu da 2023-cü ilə nisbətən 6 milyon 183 min manat və ya 7,2 faiz artım deməkdir.**

ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT XİDMƏTİ

Dövlət Xidmətinin məlumatına görə, hesabat dövründə qurumun xərcləri 95 milyon 865 min manat olub. Bu isə illik müqayisədə 8 milyon 332 min manat və ya 9,5 faiz çoxdur. Ötən il Dövlət Xidmətinin gəlirlərinin 80 milyon 552 min manatını qeyri-birja əməliyyatlarından gəlirlər, 11 milyon 749 min manatını birja əməliyyatlarından gəlirlər, 366 manatını isə sair əməliyyat gəlirləri təşkil edib.

Xərclərin 22 milyon 745 min manatını əməkhaqqı xərcləri və dövlət sosial sığorta ayırmaları, 2 milyon 54 min manatını sərf edilmiş materialların dəyəri, 1 milyon 845 min manatını amortizasiya xərcləri, 69 milyon 221 min manatını isə sair əməliyyat xərcləri təşkil edib.

# Ödəniş kartları 20,5 milyona çatıb

**Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, banklar və "Azərpoçt" MMC sistemləri üzrə cari il martın sonunda dövriyyədə olan ödəniş kartlarının sayı fevral ayı ilə müqayisədə 221 min ədəd artaraq 20 milyon 460 min (ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,4 faiz çox) təşkil edib.**




Qeyd edilib ki, ödəniş kartlarında artım debet kartları üzrə 20,1faiz, kredit kartları üzrə 0,01faiz təşkil edib. Ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə müsbət təsir göstərib. Belə ki, ay ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 dəfə artıb.

2025-ci ilin mart ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 6,562 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 5,668 milyon manatı elektron ticarətin payına düşüb. Qalan məbləğin 890 milyon manatı POS-terminallar, 2,5 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 67 faizini təşkil edib.

# I rübdə ipoteka kreditləri 9 faiz artıb



**2025-ci ilin birinci rübündə İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 125 milyon manat kredit verilib. Fondun ayırdığı kreditlərin həcmi əvvəlki illə müqayisədə 8,7 faiz artıb. Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.**

Bildirilib ki, hesabat dövründə fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 1,1 faiz artaraq 71,4 milyon manata çatıb. İpoteka və Kredit Zəmanət Fondu cari ilin yanvar-mart aylarında istiqraz buraxmaqla 200 milyon manat vəsait cəlb edib. Bu isə ötən ilə nisbətən 42,9 faiz çoxdur. Bununla yanaşı, dövlət büdcəsindən fonda ayrılan vəsaitin məbləği isə 94,5 faiz artaraq 42,6 milyon manata çatıb.

**Azərbaycanda tikilən 2 qiqavat bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirmək, əsas qovşaq yarımstansiyası funksiyasını daşımaq üçün lazımi infrastuktur yaradılır. Bu məqsədlə ölkənin ən böyük yarımstansiyalarından biri sayılan 500/330 kilovoltluq yeni "Nəvai" yarımstansiyası inşa edilir.**

# Nəvaidə "yaşıl" yarımstansiya



## Ölkənin ən böyük enerji obyektlərindən biri burada tikilir

"AzərEnerji" tərəfindən inşa olunan yarımstansiyadan ölkənin müxtəlif istiqamətlərinə yüksəkgərginlikli ötürmə xətləri çəkilir. "Nəvai" yarımstansiyası, eləcə də yeni çəkilən 500 və 330 kilovoltluq yüksək gərginlikli xətlər ötürücü sistemdə yeni mərhələnin başlamasıdır.

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətindən verilən məlumata görə, qeyd olunan layihə iki mərhələdə həyata keçirilir. Birinci mərhələdə "AzərEnerji"nin daxili imkanları və bir hissəsi dövlət büdcəsi hesabına ayrılan vəsaitlə yeni yarımstansiyanın və onun 330 kilovoltluq tərəfinin, o cümlədən Nəvaidən Abşerona 500 kilovoltluq, "Biləsuvar" və "Bankə" günəş elektrik stansiyalarına 330 kilovoltluq ötürmə xətlərinin tikintisi aparılır.

İcra qrafikinə əsasən, 2024-cü ilin sentyabr ayından başlanılan işlərin əsas hissəsi görülüb. Bu mərhələ üzrə işlərin isə cari ilin sonuna qədər başa çatdırılması planlaşdırılır. Bununla, "Bankə" və "Biləsuvar" günəş elektrik stansiyalarının enerjisistemə qoşulması öhdəliyi yerinə yetiriləcək.

Bu irimiqyaslı enerji layihəsinin ikinci mərhələsində isə Dünya Bankının maliyyələşdirilmə hissəsinə start verilməsi nəzərdə tutulur. Belə ki, bankın krediti hesabına "Nəvai" yarımstansiyasının 500 kilovoltluq tərəfinin, yarımstansiya üçün transformator və əlaqəli avadanlıqların alınması və quraşdırılması, eləcə də adıçəkilən obyektdən Mingəçevirə 500 kilovoltluq, o cümlədən Ələt, Abşeron, və Qobuya 330 kilovoltluq ötürmə xətlərinin tikintisi həyata keçiriləcək. Bu mərhələnin isə 3 il müddətinə icra olunması nəzərdə tutulub.

# Tütün bazarı və qanunvericilik



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində tütün məmulatları, o cümlədən elektron siqaretlərlə bağlı istehlak bazarında mövcud olan problemlərin müzakirəsi və onların aradan qaldırılması məqsədilə maarifləndirici görüş keçirilib. Dövlət-özəl tərəfdaşlığı çərçivəsində təşkil olunan görüşdə sözügedən məhsulların idxalı və istehsalı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri iştirak ediblər.**

Görüş zamanı tütün məmulatlarının üzərində istehlakçılar üçün Azərbaycan dilində zəruri məlumatların yerləşdirilməsi və məhsulun müvafiq keyfiyyət göstəricilərinə uyğunluğunu təsdiqləyən sənədlərlə müşayiət olunması barədə qanunvericiliyin tələbləri izah olunub. Eyni zamanda, tütün məmulatlarının satış xüsusiyyətlərinə dair qaydalar iştirakçıların diqqətinə çatdırılıb. Bundan əlavə, reklam sahəsində qanunvericiliyin tələbləri barədə məlumat verilib və sahibkarların öz fəaliyyətlərini müvafiq qanunun müddəalarına uyğun təşkil etmələri tövsiyə olunub.

Toplantıda tütün məmulatları sahəsində qanunvericiliyin tələbləri sahibkarların diqqətinə çatdırılıb, sözügedən bazarda mövcud problemlərin həlli istiqamətində rəy və təkliflər dinlənilib. Görüşdə, həmçinin sözügedən bazarda mövcud olan çatışmazlıqlar və onların həlli yolları, istehlakçıların daha çox qarşılaşdığı problemlər barədə müzakirələr aparılıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Torpaq təqvimində səpin mövsümü

## Yazlıq əkinlər məhsul bolluğunun özülüdür

**Ölkədə məhsul bolluğuna nail olunması bitkilərin əkininin vaxtında başa çatdırılmasından, eləcə də aqrotexniki qulluğun düzgün aparılmasından çox asılıdır. Bu səbəbdən də ölkə fermerləri və fərdi təsərrüfat sahələrinin rəhbərləri yazlıq bitkilərin əkininin optimal müddətdə aparılması üçün ilin əvvəlindən başlayaraq, bütün imkanları səfərbər ediblər. Məhz onların səyi nəticəsində ötən müddətdə sahələrdə kifayət qədər dənli və dənli paxlalı bitkilər, şəkər çuğunduru, kartof, tərəvəz və bostan bitkiləri əkilib.**



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-mart aylarında ölkə üzrə cari ilin məhsulu üçün 122 min 164,2 hektar sahədə yazlıq səpin aparılıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 624 hektar və ya 0,5 faiz çoxdur. Cari ilin ilk rübündə ölkə üzrə 18 min 894,9 hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) əkilib. Bu isə ötən ilin müvafiq dövrünün səviyyəsini 1218,9 hektar və ya 6,9 faiz üstələyib.

Hesabat dövründə 93,1 hektar sahədə buğda, 5 min 924,8 hektar sahədə isə vələmir əkilib. Bu ilin mart ayından etibarən ölkə üzrə qarğıdalı əkininə başlanılıb. Ay ərzində 5 min 76,4 hektar sahədə toxum səpilib ki, bunun da 5 min 53,4 hektarını dənlik qarğıdalı təşkil edib. Bu sahədə əvvəlki ilin eyni dövrünə nisbətən müvafiq olaraq 70 faiz və 69,3 faizlik artım qeydə alınıb. Bununla yanaşı, yanvar-mart aylarında 3 min 75,5 hektar sahədə dən üçün günəbaxan əkilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfəyə yaxın artım deməkdir.

Mövsüm ərzində sahələrdə şəkər çuğunduru, pambıq, kartof, tərəvəz, bostan bitkiləri, eləcə də birillik otların əkini də davam etdirilib. Hesabat dövründə cari ilin məhsulu üçün 26 min 110,1 hektar sahədə kartof, 26 min 877 hektar sahədə tərəvəz, 3 min 891,4 hektar sahədə bostan bitkiləri əkilib. Ötən ilin ilk üç ayı ilə müqayisədə kartof və tərəvəz bitkilərinin əkinində cüzi azalma qeydə alınsa da, bostan bitkilərinin və şəkər çuğundurunun əkini müvafiq olaraq 12,1 faiz və 15,7 faiz artıb. Eyni zamanda, mart ayında havaların əlverişli keçməsi pambıq əkininə də erkən başlamağa imkan yaradıb. Məhz bunun nəticədir ki, ay ərzində 151 hektar sahədə çiyid səpini aparılıb.

Ölkədə heyvandarlığın yem bazasının artırılması aqrar sektorun qarşısında duran mühüm məsələlərdəndir. Bu səbəbdən də fermerlər və fərdi təsərrüfat sahibləri yem bitkilərinin əkinini optimal müddətdə başa çatdırmağa çalışırlar. Cari ilin birinci rübündə 3 min 891,4 sahədə birillik otlar əkilib. Bununla yanaşı, keçən ilin payızlıq əkini də nəzərə alınmaqla bu ilin kölgəliksiz çoxillik otların sahəsi 33 min 84,2 hektara qədər genişləndirilib.

Yazlıq bitkilərin bölgələr üzrə əkininə gəldikdə isə, bu sahədə ən böyük artım Şərqi Zəngəzur iqtisadi rayonunda qeydə alınıb. Belə ki, yanvar-mart aylarında adıçəkilən iqtisadi rayon üzrə 1055,1 hektar sahədə əkin aparılıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,9 dəfə artım deməkdir. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası (29,7 faiz), Quba-Xaçmaz (27,8 faiz), Şirvan-Salyan (17,4 faiz), Dağlıq Şirvan (15,6 faiz) və Gəncə-Daşkəsən iqtisadi rayonlarında da yazlıq bitkilərin əkinində əhəmiyyətli artım qeydə alınıb.

Yanvar-mart aylarında dənli və dənli paxlalı bitkilərin əkini üzrə ən yüksək artım isə Şərqi Zəngəzur iqtisadi rayonunda (52,2 dəfə) müşahidə olunub. Bununla yanaşı, cari ilin ilk rübündə Qazax-Tovuz (52,7 faiz), Dağlıq Şirvan (41 faiz), Quba-Xaçmaz (23,8 faiz) və Şirvan-Salyan (13,9 faiz) iqtisadi rayonlarında, eləcə də Naxçıvan Muxtar Respublikasında (10,8 faiz) da bu növ bitkilərin əkinində artım baş verib. Hesabat dövründə muxtar respublikada və Şərqi Zəngəzur iqtisadi rayonunda daha çox yazlıq buğda əkini aparılıb.

Qarğıdalı (dən üçün qarğıdalı da nəzərə alınmaqla) əkininə gəldikdə isə, ilin ilk üç ayında Naxçıvan Muxtar Respublikasında (80,4 dəfə), eləcə də Quba-Xaçmaz (84,2 dəfə), Şirvan-Salyan (16 dəfə) və Qarabağ (12,5 dəfə) iqtisadi rayonlarında daha çox artım qeydə alınıb. Hesabat dövründə dən üçün günəbaxan əkinində isə ən yüksək artım Qarabağ (2,5 dəfə), Gəncə-Daşkəsən (2,4 dəfə), Qazax-Tovuz (78,5 faiz) və Mərkəzi Aran (15,8 faiz) iqtisadi rayonlarında qeydə alınıb.

Qeyd etdiyimiz kimi, cari ilin yanvar-mart aylarında ölkədə şəkər çuğunduru əkinində artım qeydə alınıb. Şirvan-Salyan (782,5 hektar), Qarabağ (208 hektar) və Gəncə-Daşkəsən (144 hektar) iqtisadi rayonlarında isə əvvlki illə müqayisədə daha yüksək göstəriciyə nail olunub.

Bu ilin ilk üç ayında ölkə üzrə kartof əkinində azalma baş versə də, Abşeron–Xızı, Şirvan-Salyan, Şərqi Zəngəzur və Dağlıq Şirvan iqtisadi rayonlarında, eləcə də Naxçıvan Muxtar Respublikasında bu sahədə artım qeydə alınıb. Hesabat dövründə ən çox əkin ölkənin böyük kartofçuluq rayonlarından olan Şəmkirdə (5002 hektar), Tovuzda (3821,3 hektar) və Cəlilabadda (2900 hektar) həyata keçirilib.

Yanvar-mart aylarında ölkədə tərəvəz əkinlərinin sahəsi ötən ilin eyni dövrünə nisbətən azalsa da, Naxçıvan Muxtar Respublikasında, eləcə də Mil-Muğan, Şirvan-Salyan və Dağlıq Şirvan iqtisadi rayonlarında bu sahədə artım müşahidə edilib. İlin ilk üç ayında Zaqatala rayonunda 6138 hektar, Ağdamda 2273 hektar, Sabirabadda isə 1539 hektar sahədə tərəvəz əkilib. Hesabat dövründə Gədəbəy, Hacıqabul, Qazax, İmişli, Qusar və Neftçala rayonlarının fermerləri də tərəvəz sahələrini xeyli genişləndirməyə nail olublar.

Bu ilin birinci rübündə ölkədə bostan bitkilərinin əkinində qeydə alınmış artım isə, əsasən, Qarabağ, Mil-Muğan, Şəki–Zaqatala və Lənkəran–Astara iqtisadi rayonlarının hesabına baş verib. İlin ötən dövründə Neftçala, Cəlilabad, İmişli, Astara və Saatlı fermerləri daha çox bostan bitkiləri əkiblər.

Göründüyü kimi, ölkə əhalisinin yarısından çoxunun yaşadığı regionlarda sosial-iqtisadi inkişafa dair dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərin iqtisadi səmərəsi getdikcə artır. Ötən 22 ilə yaxın müddətdə reallaşdırılan dövlət proqramları aqrar sektorda böyük canlanmaya səbəb olub. Bütövlükdə isə, son illər ölkə üzrə kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısının nəticəsi olaraq bölgələrdə aqrar sahə ilə məşğul olan fermerlərə hərtərəfli yardımlar edilir.

Fermerlərin torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi, onlara subsidiyaların ayrılması, pambıqçılıq, tütünçülük, baramaçılıq kimi əmək tutumu və gəlir imkanları böyük olan sahələrin inkişafının təşviq edilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə texnika və gübrə satışı bu qəbildən olan tədbirlərdəndir. Bununla yanaşı, mühüm növ kənd təsərrüfatı məhsullarının istehsalı üçün verilən subsidiyalar, bir sıra vergi güzəştləri, fermerlərin texnikaya, maşın və mexanizmlərə əlçatanlığının təmin edilməsi, eləcə də ölkədə aqrar sığorta mexanizminin işə düşməsi də əkin sahələrinin genişləndirilməsi üçün yaxşı imkanlar yaradır. Dövlətin aqrar sahəyə göstərdiyi diqqət və qayğı onu deməyə əsas verir ki, bu sahədə artım ildən-ilə daha da yüksələcək.

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış ənənəvi təsərrüfatçılıqdan bazaryönümlü əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin gücləndirilməsi hesabına rəqabətqabiliyyətli aqrobiznesi formalaşdırmağı nəzərdə tutur.

Yeri gəlmişkən, bu yaxınlarda ölkədə bəzi mövsümi kənd təsərrüfatı məhsullarının yığımına başlanılacaq. Əkin sahələrinin genişləndirilməsi və lazımi aqrotexniki tədbirlərin aparılması isə onu deməyə əsas verir ki, dükan-bazarlarda kartof və tərəvəz məhsulları bol olacaq. Növbəti aylarda isə digər kənd təsərrüfatı məhsullarının, o cümlədən dənli və dənli paxlalıların da yığımına başlanılacaq. Son zamanlar havaların nisbətən yağmurlu və mülayim keçməsi sahələrdə bol məhsulun yetişməsi üçün zəmin yaradır. Bu isə həm fermerlər, həm də alıcılar üçün müsbət haldır.

# "Abşeron" yatağının II faza layihəsi



**"Abşeron" yatağının tammiqyaslı işlənilməsi mərhələsi üzrə bu il ərzində yekun investisiya qərarının qəbul olunmasına hazır olmaq məqsədilə layihə tərəfdaşları ilə əsas podratçı tərəflər arasında yatağın işlənməsinin ikinci fazası üçün ilkin layihələndirmə işlərinin icrasına dair razılaşma əldə olunub. Cari ilin əvvəlindən isə layihələndirmə işlərinə başlanılıb. Bu barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən məlumat verilib.**

Qeyd olunub ki, 2025-ci ilin sonunda ilkin layihələndirmə mərhələsinin tamamlanması və yekun investisiya qərarının verilməsi gözlənilir. Qurumun məlumatına görə, tərəfdaşlarla aparılan ilkin kommersiya müzakirələrinə əsasən, "Abşeron" yatağından hasil olunacaq qaz Azərbaycanda daxili bazarın ehtiyaclarının ödənilməsi üçün alınmaqla yanaşı, dünya bazarına da ixrac ediləcək.

"SOCAR-ın beynəlxalq tərəfdaşlarla birgə layihənin işlənməsini həyata keçirməsi və ilk qaza nail olunması, qlobal enerji bazarına müsbət təsir etməklə yanaşı, eyni zamanda, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminatçısı qismində mövqeyinin möhkəmlənməsində böyük rol oynayacaq", – deyə məlumatda qeyd olunub.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan, təxminən, 100 kilometr cənub-şərqdə yerləşən Abşeron qaz-kondensat yatağı JOCAP (Joint Operating Company of Absheron Petroleum B. V.) tərəfindən idarə olunur. Yataqdan ilk qaz 2023-cü ilin iyul ayının əvvəlində hasil edilib. İlkin hesablamalara əsasən, yataqda, təxminən, 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat ehtiyatı var.



# Ölkədə qazlaşma 97 faizə çatıb

**"Azəriqaz" İstehsalat Birliyi baş direktorunun birinci müavini Nail Abdullayev "Kommunal infrastrukturunun inkişafına dair sual və təkliflərin müzakirəsi" mövzusunda keçirilən forumdakı çıxışında təmsil etdiyi qurumun hazırda ölkə üzrə 11 regional idarə ilə fəaliyyət göstərdiyini, onun illik qaz qəbul və satış həcmini 8,4 milyard kubmetrə çatdırdığını bildirib.**

N.Abdullayevin sözlərinə görə, "Azəriqaz"ın 10 min 700-dən çox əməkdaşı var, eyni zamanda, 73 min kilometrdən artıq yeraltı və yerüstü qaz kəmərləri istismar edir. Hazırda 2,6 milyondan çox abunəçiyə xidmət göstərir.

O əlavə edib ki, qurumun əsas məqsədi etibarlı və dayanıqlı əməliyyat bazası yaratmaq, innovativ qaz həlləri təqdim edərək müştərilər, cəmiyyət və ətraf mühit üçün daha yaxşı gələcək formalaşdırmaqdır.

# Laçın Bakıya da su göndərəcək

**Tutumu 26 milyon kubmetr olan Zabuxçay su anbarı vasitəsilə Laçının bir çox kəndlərinin su təchizatının, eləcə də Qubadlı və Zəngilan rayonlarında əkin dövriyyəsinə buraxılan 12,1 min hektar torpağın suvarılması nəzərdə tutulur. Bunu Dövlət Su Agentliyi sədrinin müşaviri Etibar Məmmədov bildirib.**



Onun sözlərinə görə, ehtiyac yaranacağı təqdirdə Cəbrayıl rayonuna da buradan suvarma üçün su verilməsi mümkündür. E. Məmmədov deyib ki, dövlət başçısının tapşırığı ilə 91 milyon kubmetr su tutumu olacaq daha bir anbarın texniki-iqtisadi əsaslandırılması hazırlanır. Layihə mərhələsində olan həmin anbar da bu çay üzərində inşa olunacaq. Bu anbar Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl və Ağdam üçün həm içməli, həm də suvarma su mənbəyi kimi nəzərdə tutulur. "Eyni zamanda, gələcəkdə bu anbardan Bakı şəhərinə su nəql edilməsi də layihənin bir hissəsidir", – deyə E.Məmmədov əlavə edib.

# Vahid Kommunal İnformasiya Sistemi yaradılır

**"Azərişıq" ASC sədrinin birinci müavini Ramil Yusifov "Kommunal infrastrukturun inkişafına dair sual və təkliflərin müzakirəsi" mövzusunda keçirilən forumda respublikada Vahid İnformasiya Sisteminin yaradılması istiqamətində işlərə başlanıldığını bildirib.**

Onun sözlərinə görə, kommunal xidmətlərlə bağlı Vahid İnformasiya Sisteminin yaradılmasına dair Yol Xəritəsi var. Yol Xəritəsindəki 18 bənddən 12-sinin "Azərişıq" tərəfindən həyata keçiriləcəyi nəzərdə tutulur. "Azərişıq" ASC-nin qarşısına isə Vahid İnformasiya Sisteminin yaradılmasına dair strukturun formalaşdırılması, dünya təcrübəsinin öyrənilməsi və bu sistemin bazasının yaradılması ilə bağlı tapşırıqlar qoyulur.



R.Yusifov qeyd edib ki, hazırda qurum beynəlxalq təcrübənin öyrənilməsi, konsepsiyanın hazırlanması ilə bağlı layihələr gerçəkləşdirir. "Azərişıq", eyni zamanda, infrastruktur layihələri ilə yanaşı, sahibkarlara göstərilən xidmətlər istiqamətində də genişmiqyaslı işlər görür. Qurum elektron xidmətləri təşviq edərək vətəndaşlara, xüsusilə də sahibkarlara öz yerlərini, ofislərini tərk etmədən şəbəkəyə qoşulmağı və yaxud daha sürətli xidmətlərin göstərilməsini təqdim edir.

Onun sözlərinə görə, "Azərişıq" sahibkarların maarifləndirilməsi və yaranan sualların cavablandırılması üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birlikdə regionlarda hər ay müntəzəm olaraq fəaliyyət göstərir və onların suallarını cavablandırır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan–Böyük Britaniya Hökumətlərarası Komissiyanın 7-ci iclası



**Londonda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib.**

Energetika Nazirliyindən verilən məlumatda bildirilib ki, iclasdan əvvəl energetika naziri Pərviz Şahbazovun Birləşmiş Krallığın biznes və ticarət üzrə dövlət katibinin müavini, xidmətlər, kiçik bizneslər və ixrac naziri Qaret Tomasla görüşündə iki ölkənin əməkdaşlıq gündəliyində yer alan aktual məsələlərə dair müzakirələr aparılıb.

Sonra Hökumətlərarası Komissiyanın iclasında həmsədrlər – Birləşmiş Krallığın xidmətlər, kiçik bizneslər və ixrac naziri Qaret Tomas və Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxış ediblər.

Nazir Qaret Tomas deyib: "Bu gün Azərbaycanla əldə olunan razılaşmalar iki ölkə arasında iş münasibətlərinin daha da yaxşılaşdırılmasına imkan verəcək. İqtisadi artımı sürətləndirməyə yönəlmiş planlarımız bu sənədlərin əsasını təşkil etməklə energetika, infrastruktur və təhsil sahələrində ixracın və göstərilən xidmətlərin genişlənməsinə təkan verir. Azərbaycan onillərlə Böyük Britaniyanın bir çox sənaye sahəsində əsas tərəfdaşı olmuşdur və bu razılaşmalar növbəti illərdə mövcud əməkdaşlığı daha da möhkəmləndirəcəkdir".

Nazir Pərviz Şahbazov isə çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin əsas ticarət tərəfdaşı olan Birləşmiş Krallıqla münasibətlərin inkişafına və çoxşaxəli əməkdaşlığa xüsusi önəm verdiyini vurğulayaraq bildirilib ki, Böyük Britaniya 37 milyard dollardan çox sərmayə qoyuluşu ilə Azərbaycanda ən iri xarici investor statusunu qoruyur. Ölkəmizdə müxtəlif sahələrdə 500-dən çox Britaniya şirkətinin aktiv fəaliyyəti, cari ilin 1-ci rübündə ikitərəfli ticarət dövriyyəsinin 4 dəfə artması ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın dinamik inkişafının göstəriciləri kimi qiymətləndirilib.

Nazir daha sonra qeyd edib ki, Azərbaycanın neft-qaz sektoruna 35 milyard dollardan artıq sərmayə qoymuş bp ilə uzunmüddətli tərəfdaşlığımız Cənub Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyindəki strateji rolunu davam etdirməsi, AÇG yatağında hasilatın sabitləşdirilməsi və maksimum səviyyəyə çatdırılması ilə yanaşı, yeni layihələrin icrası istiqamətində də genişlənir: "Şəfəq" Günəş Elektrik Stansiyasının fəal tikinti mərhələsinə tezliklə start veriləcək. Bu layihə bp ilə "yaşıl" enerji və neft-qaz sənayesinin dekarbonizasiyası sahəsində əməkdaşlığımızın qabaqcıl nümunəsidir. Biz, eyni zamanda, digər Britaniya şirkətləri və investorları ilə də müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə hazırıq. Enerji keçidi, nəqliyyat və infrastruktur sahələrində prioritet layihələr üçün Birləşmiş Krallığın İxrac Kredit Agentliyi (UKEF) tərəfindən nəzərdə tutulan 5 milyard funt sterlinq həcmində kredit zəmanəti isə ikitərəfli iqtisadi tərəfdaşlığımızın daha da möhkəmləndirilməsinə mühüm töhfə verə bilər".

Azərbaycanın 30-a yaxın dövlət qurumunun təmsil olunduğu iclasda 20-dən çox sahə üzrə görülmüş işlər, həlli vacib məsələlər nəzərdən keçirilib və inkişaf perspektivlərinə dair təqdimatlar edilib. Enerji keçidi istiqaməti üzrə dənizdə külək, Günəş enerjisi və hidrogen infrastrukturunun inkişafı da daxil olmaqla bərpaolunan enerji, şəbəkənin inkişafı, enerji səmərəliliyi, emissiyaların azaldılması və liberal elektrik enerjisi bazarına keçid kimi sahələrdə əməkdaşlıq edilməsi razılaşdırılıb.

İqtisadiyyatın modernləşdirilməsi-diversifikasiyası üzrə Böyük Britaniya ilə maliyyə və peşəkar xidmətlər, texnologiya, süni intellektin tətbiqi, kiçik və orta sahibkarlıq fəaliyyətinin təşviqi, kibertəhlükəsizlik, elm və təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlıq imkanları dəyərləndirilərək, mümkün istiqamətlər müəyyənləşdirilib.

İnfrastrukturun inkişafı istiqamətində Orta Dəhlizdən istifadə, qarşılıqlı iqtisadi investisiya, tekstil sənayesi üçün ikitərəfli Ticarət və İnvestisiya Platformasının yaradılması imkanlarının müəyyənləşdirilməsi, su təsərrüfatı və tullantıların idarə edilməsi, nəqliyyat, aviasiya, rəqəmsal tikinti və mina təmizləmə sahələrində əməkdaşlıq nəzərdə tutulub.

Tənzimləmə və biznes mühiti istiqamətində hər iki ölkədə şirkətlərin sayının artırılması, sənaye parkları və iqtisadi zonalarla, o cümlədən Ələt Azad İqtisadi Zonası ilə tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi, bankçılıq, rəqəmsal inkişaf, kənd təsərrüfatı və qida təhlükəsizliyi sahələrində, həmçinin ixrac məhsullarına icazələrin asanlaşdırılması üzrə əməkdaşlıq barədə razılıq əldə olunub. İkitərəfli iqtisadi əlaqələrin inkişafı üçün "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin imzalanmasının vacibliyi bildirilib.

Tədbir çərçivəsində UKEF və AZPROMO arasında Anlaşma Memorandumu imzalanıb.

Yekunda Azərbaycan Respublikası Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Komissiyanın 8-ci iclasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə qərar verilib.

*XQ*

# İtaliya ölkəmizin ən böyük ticarət tərəfdaşıdır

**İqtisadiyyat naziri Mikayıl Cabbarov İtaliyanın şirkətlər və "Made in İtaly" naziri Adolfo Urso ilə videokonfrans formatında müzakirə aparıb.**




Danışıq zamanı İtaliya ilə dostluğa və strateji tərəfdaşlığa əsaslanan iqtisadi əməkdaşlığın inkişaf etdiyi vurğulanıb. İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğu qeyd edilib. Bir çox İtaliya şirkətlərinin ölkəmizdə sənaye, nəqliyyat, tikinti, ticarət, xidmət və digər sahələrdə uğurla fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. İqtisadi əlaqələrin daha da gücləndirilməsi üçün geniş imkanların olduğu bildirilib.

Tərəflər ticarət, sənaye və digər sahələrdə əməkdaşlığın artırılması, biznes subyektlərinin işbirliyi və qarşılıqlı investisiya layihələri barədə fikir mübadiləsi aparıblar.

*XQ*

# ADA-da kommunikasiya təlimi

**Aprelin 30-u Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İxtisasartırma Proqramının birgə təşkilatçılığı ilə bir sıra dövlət orqan və qurumlarının kommunikasiyaya məsul şəxsləri üçün "Strateji kommunikasiya və böhran kommunikasiyasında yeni trendlər" mövzusunda təlimlər başa çatıb.**



Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov təlimin yekununda qeyd edib ki, informasiya sabitliyinin təmin olunması, dezinformasiyanın qarşısının alınması və ictimai marağın düzgün istiqamətləndirilməsi kommunikasiyaya məsul şəxslərin əsas prioritetlərindəndir. O vurğulayıb ki, dövlət qurumlarının media ilə konstruktiv əməkdaşlığı, məlumatların ictimaiyyətə operativ, dolğun şəkildə çatdırılması qarşılıqlı etimadın qurulmasında vacib komponentlərdəndir.

ADA Universitetinin akademik işlər üzrə prorektoru Elkin Nurməmmədov çıxışında bildirib ki, mətbuat xidmətlərinin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə təşkil olunan təlimlərin proqramı peşəkar mətbuat ofisinin yaradılması, jurnalistlərdən gələn sorğuların effektiv cavablandırılması və onların suallarına vaxtında, dəqiq cavablar verilməsi kimi vacib aspektləri əhatə edir. Universitetin professoru, İnkişaf və Diplomatiya İnstitutunun Siyasi Araşdırmalar, Təhlillər və Nəşrlər üzrə direktoru Damyan Krineviç strateji kommunikasiya, böhran halları və reputasiya məsələlərinə dair çıxış edərək ictimaiyyətlə əlaqələrə məsul şəxslərlə faydalı müzakirələr aparıb.

Təlimin sonunda iştirakçılar sertifikatla təltif olunublar.

*XQ*

## NAXÇIVAN XƏBƏRLƏRİ

# Sahibkarlığın uğurları

**Dünən Naxçıvanda "Konstitusiya və Suverenlik İli" və Sahibkarlar Gününə həsr olunmuş "Konstitusiya və suverenlik – Naxçıvanda sahibkarlığın inkişafı" mövzusunda dəyirmi masa müzakirəsi keçirilib.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli məclisdə çıxış edərək qeyd edib ki, 2025-ci ilin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Konstitusiya və Suverenlik İli" elan olunması dövlət müstəqilliyinin, siyasi sabitliyin və iqtisadi təhlükəsizliyin bir daha prioritet elan edilməsi, güclü iqtisadi baza üzərində qurulan müasir Azərbaycan modelinin davamlı inkişafına mesajdır. Bu modelin əsas sütunlarından biri isə sahibkarlıqdır.

Fuad Nəcəfli bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" blokada şəraitində iqtisadi fəallığın yüksəldilməsi, sahibkarlığın genişlənməsi və əhalinin rifahının artırılması istiqamətində mühüm yol xəritəsi olub. Dövlət proqramı çərçivəsində Naxçıvan Sənaye Parkının yaradılması, yeni nəqliyyat infrastrukturlarının formalaşdırılması, turizm, kənd təsərrüfatı və xidmət sahələrinin inkişafı istiqamətində əhəmiyyətli işlər görülməkdədir. O, yaradılan imkanlardan bacarıqla istifadə edərək yerli və regional iqtisadiyyatda özəl sektorun payını artırmaqda, yeni iş yerləri açtmaqda və əhalinin rifahını yüksəltməkdə sahibkarlara uğurlar arzu edib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov, iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov, Sahibkarlar Konfederasiyası idarə heyətinin sədri Vüqar Abbasov, sahibkarlardan Teymur Rzayev və Əfqan İsmayılov muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində atılan addımların bəhrələrindən bəhs ediblər, qarşıda duran hədəflərdən danışıblar.

Sahibkarlar Gününə həsr olunmuş filmin nümayişindən sonra investorlar üçün nəzərdə tutulmuş "İnvest in Nakhchivan" adlı təşviqat xarakterli veb səhifəsinin təqdimatı olub.

# Elektron xidmətlər genişlənir

**Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi elektron xidmətlərin ölkə üzrə vahid sistemlərə inteqrasiyasını davam etdirir.**



Muxtar Respublika iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov bildirib ki, qurum vətəndaşlara və sahibkarlara, ümumilikdə, 190 növ xidmət göstərir, onlardan 110-u elektronlaşdırılıb. Nazirlik və onun tabe qurumları 9 elektron informasiya sisteminə inteqrasiya olunub. Bunun nəticəsində vergi orqanlarında məlumatların saxlanılması və emalı asanlaşıb, operativ informasiya mübadiləsi təmin edilib. I rübdə 2023-cü illə müqayisədə "Asan imza" sertifikatlarının sayı 2,2 dəfə artaraq 43 min 643-ə çatdırılıb.

Dövlət əmlakının idarə olunması və daşınmaz əmlakın qeydiyyatı sahəsində informasiya texnologiyalarının tətbiqi və elektronlaşdırma istiqamətində mühüm addımlar atıldığını vurğulayan Abbas İsmayılov qeyd edib ki, 2024-cü il ərzində elektron xidmətlər vasitəsilə daxil olan müraciətlərin sayı 2023-cü illə müqayisədə 4,8 dəfə, 2025-ci ilin ilk 3 ayında isə ötən ilə nisbətən 40,3 faiz artıb.

# "SuVar!" yaşıl aksiyası

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "SuVar!" adlı növbəti ekoloji aksiya keçirilib.**




"Yaşıl" mərasimdə müxtəlif dövlət qurumlarının nümayəndələri, ekokönüllülər, tələbələr və müxtəlif müəssisələrdə fəaliyyət göstərən könüllülər fəal iştirak ediblər. İştirakçılara sudan səmərəli və qənaətlə istifadə yolları, yaşıllıqların qorunması və genişləndirilməsinin əhəmiyyəti, eyni zamanda, mütərəqqi suvarma sistemləri barədə ətraflı məlumat verilib.

Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Malik Rzayev aksiyanın əhəmiyyətindən danışıb, ekoloji tarazlığın qorunmasının və su ehtiyatlarından səmərəli istifadənin bu günün deyil, gələcəyin də əsas prioritetlərindən olduğunu diqqətə çatdırıb.

Sonra komandalara bölünən iştirakçılar Naxçıvan şəhərinin Çənlibel məhəlləsi və ətraf ərazilərində yerləşən yaşıllıq sahələrində ağacların suvarılması işlərinə başlayıblar. Eyni zamanda, iştirakçılar aksiya ərzində maarifləndirici broşürlər paylayaraq şəhər sakinlərini aksiyaya qoşulmağa, sudan səmərəli və qənaətlə istifadə etməyə və təbiətin mühafizə olunmasına təşviq ediblər.

Sonda aksiya iştirakçılarına təşəkkürnamə və hədiyyələr təqdim edilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

Şahin Fazil – 85

# Unudulmaz alim, şair, tərcüməçi




**Görkəmli tarixçi alim, professor Şahin Fazilin 85 illik yubileyi münasibətilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında AMEA Tarix və Etnologiya İnstitutu ilə birgə "İlkin qaynaqlar tarixin güzgüsüdür" mövzusunda elmi konfrans keçirilib.**

ADPU Quba filialının direktoru professor Yusif Alıyev məclisi giriş sözü ilə açaraq bildirib ki, ömrünün 85-ci ilinin 4-cü ayında əbədiyyətə qovuşmuş Şahin Fazil çağdaş Azərbaycan ziyalılarının ön sırasında yer almaqla ölkəmizdə layiqli nüfuş qazanıb, doğulub-böyüdüyü Quba torpağına da başucalığı gətirib. Tanınmış tarixçi, şair, şərqşünas, tərcüməçi, AMEA Tarix və Etnologiya İnstitutu mənbəşünaslıq və tarixşünaslıq şöbəsinin müdiri, professor Şahin Fazil oğlu Fərzəliyevin həmkarlarının və həmyerlilərinin onun 85 illik yubileyini birgə elmi konfrans keçirməklə qeyd etmələri alimin xatirəsinə xalqımızın da böyük ehtiramını ifadə edirlər.

Filial direktoru bildirib ki, professor Şahin Fazilin təkcə Azərbaycan Sovet Ensiklopediyasında Azərbaycan və Naxçıvan haqqında yazdığı yüzdən çox məqalənin hər biri mötəbər elmi mənbədir. O, Üzeyir Hacıbəyli Ensiklopediyası üçün də 100-dək mövzu işləyib. Tarixçi alimin 300-dən çox elmi məqaləsi çap olunub. İsgəndər Münşinin 2,5 min səhifəlik "Tarixe-aləmaraye-Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərinin tərcüməsi onun Azərbaycan elminə verdiyi layiqli töhfələrdən biridir. Jozef Tiflisinin "Mir Veys və Şah Hüseyn", Yan Tadeuş Kruçinskinin "Xristian səyyahın tarixi" kitablarını da Azərbaycan dilinə Şahin Fazil tərcümə edib. Çalışdığı hər yerdə böyük etimad və nüfuz qazanan Şahin müəllim özünə qarşı tələbkarlığı, gözütoxluğu, xidmətdə təmənnasızlığı ilə seçilib və sevilib.

Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tariyel İbrahimov Şahin Fazilin mənalı həyat və zəngin yaradıcılıq yolunu əks etdirən məruzəsində bildirib ki, professor Şahin Fazilin Azərbaycan Sovet Ensiklopediyasında yer almış 100-dən çox məqaləsinin hər biri mötəbər elmi mənbədir. O, Üzeyir Hacıbəyli Ensiklopediyası üçün də çoxsaylı mövzu işləyib. Tarixçi alimin 300-dən çox elmi məqaləsi çap olunub.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Eynulla Mədətli məruzəsində alim-şair-tərcüməçi Şahin Fazilin çoxyönlü elmi və bədii irsinin bir-birini tamamlayaraq mükəmməl yaradıcılıq örnəyi təşkil etdiyini bildirib. Natiq qeyd edib ki, alimin əsərlərinin bir çoxu özünün müstəsna səyləri ilə çap olunsa da, hələ dərindən tədqiq edilməyib. Yaxşı ki, Şahin müəllimin yaradıcılığı gənc tədqiqatçıların diqqətindən kənarda qalmayıb. Çoxsaylı aspirantları onun yaradıcılığı barədə dəyərli məqalələr yazıblar.

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, fəlsəfə doktoru Füzuli Qurbanov, Tarix və Etnologiya İnstitutunun şöbə müdirləri Tofiq Nəcəfli və professor Tofiq Mustafazadə yubilyarın müxtəlif illərdə diplomatik cəbhədə fəaliyyətinin onun elmi və bədii yaradıcılığı ilə davamlı müşayiət olunduğunu, Azərbaycan elmini tanıdan əsərlərinin və fars dilindən çevirdiyi mənbələrin ciddi tarixi önəm daşıdığını, klassik ziyalılarımıza məxsus müdrikliyinin hikmət xəzinəmizi zənginləşdirdiyini vurğulayıblar. Onlar sevimli müəllimlərinin məzunu olduğu BDU-nun şərqşünaslıq fakültəsində, Sumqayıtın və Lənkəranın ali məktəblərində pedaqoji fəaliyyəti ilə çoxsaylı davamçısını da yetişdirdiyini söyləyiblər.

Əməkdar dövlət qulluqçusu İsrafil Qurbanov həyatda dərin hörmət bəslədiyi, sıx təmasda olduğu insan haqqında öyüncə söhbət açaraq qeyd edib ki, Şahin adı bu bənzərsiz ziyalıya həmişə ucalıq eşqi gətirib, Fazil təxəllüsü isə ona daim fəzilət təlqin edib. Şahin Fazilin dərin zəkası onu Azərbaycan elminin dərin qatlarına çəkib aparıb, incə duyğuları isə milli poeziyamızın səmalarına qanadlandırıb. Söz sərrafı, nəcib ailə başçısı, sadiq dost özündən sonra zəngin elmi-ədəbi irs və unudulmaz xatirələr qoyub getsə də, təəssüf ki, mənəvi xəzinəsinin xeyli hissəsini özü ilə haqq dünyasına apardı.

Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsinin sədri, tanınmış şair Ramiz Qusarçaylı Şahin Fazilin alim, tərcüməçi, təhlilçi, tənqidçi, ədəbiyyatşünas, qədim və müasir ədəbiyyatın müxtəlif janrlarında qələmini uğurla sınamış şair kimi yaradıcılıq diapazonunun insanda heyrət doğurduğunu bildirib. Yerli ziyalılar Əkrəm Qaflanoğlu və Eynulla Müslüm çıxışlarında Şahin Fazilin doğma yurdu ilə sıx bağlı olduğunu xatırlayaraq, onun 700 səhifəlik "Quba tarixi" kitabı ilə bu torpağa məmtəşəm bir mənəvi abidə yaratdığını məmnunluqla xatırladıblar.

Şahin Fərzəliyevin qızı Ülviyyə Şahinqızı konfransın təşkilinə, göstərilən qədirbilənliyə görə minnətdarlığını bildirib.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

Şahin Fazil ömrünün son illərində AMEA Tarix və Etnologiya İnstitutunun mənbəşünaslıq və tarixşünaslıq şöbəsinin müdiri vəzifəsində səmərəli fəaliyyət göstərirdi. Onun çoxşaxəli yaradıcılıq yoluna və bizə yadigar qoyduğu əsərlərin sayına, həcminə, ən başlıcası, məzmununa, rəngarəngliyinə nəzər saldıqda gözləri önündə lal axan çaylara bənzər dərin və geniş bir nəhr canlanır. Tarixçi alimin yaradıcılığı çox zəngin olsa da, hələ öz layiqli qiymətini almayıb.

Bədii yaradıcılığında olduğu kimi, elmi fəaliyyətində də yorulmaq bilmədən çalışan, neçə-neçə alimin işini görən bu elm fədaisinin əsərlərinin biblioqrafiyası onun məhsuldar bir alim olduğunun sübutudur. Gənc şair Şahin Fazilin "Qızbənövşə" adlı ilk şeiri 1958-ci ildə "Qızıl Quba" qəzetində dərc olunanda, heç düşünməzdi ki, o, bir vaxt Azərbaycan Yazıçılar Birliyinin sayılıb-seçilən üzvlərindən biri olacaq, 142 illik tarixi olan "Məcməüş-şüəra"ya sədr seçiləcək və 1998-ci ildə isə bu mötəbər məclisin tarixini, onun üzvlərinin əsərlərini "Təzkireyi – Şahin" kitabında müasir oxucularımıza çatdıracaq.

Şahin müəllimin həyatında ailə müqəddəsliyi, dostluğa sədaqət hissi qırmızı xətt kimi keçir. Poeziyamızda həyatdan vaxtsız köçmüş ömür-gün yoldaşlarına yazılan elegiyaların, bəlkə də, ən təsirlilərini o yazıb. Lakin Şahin Fazilin şeiriyyəti təkcə sevgi və sədaqətdən bəhs etməyib. Onun poetik irsində xalqımızın şanlı və ağrılı keçmişi, bugünü və gələcəyi haqqında dərin ictimai məna daşıyan nümunələr də az deyil. Şahin müəllimin 2018-ci ildə çap olunmuş "Doğruya doğru" adlı 1223 səhifəlik kitabı onun bədii yaradıcılığının məzmun və sanbalını əks etdirir. Şair 2001-ci ildə yazdığı bir qəzəlində deyirdi:

*Sahib ollam yenə Xankəndimə, Allah qoysa,*
*Salaram düşməni̇mi bəndimə, Allah qoysa,*
*Azərbaycanı kafər ki, məəttəl qoydu,*
*Bir zaman mat olacaq fəndimə, Allah qoysa.*

Nə yaxşı ki, Şahin müəllim bu istəyinin çin olmasını gördü.

Tarixçi alimin ən qiymətli elmi əsərləri onun "Azərbaycan və Osmanlı İmperiyası XV–XVI əsrlərdə" mövzusunda yazdığı doktorluq dissertasiyasıdır. Daha əvvəl, 1974-cü ildə isə Həsən bəy Rumlunun "Əhsənül-Təvarix" ("Tarixlərin ən yaxşısı") əsəri əsasında namizədlik dissertasiyası müdafiə etmişdi. Şahin Fazil Azərbaycan tarixinin çox mürəkkəb dövrü olan orta əsrlər üzrə respublikamızın nüfuzlu alimlərindən biri kimi 7 cildlik "Azərbaycan tarixi" kitabının əsas müəlliflərindən biridir.

Cəlaləddin Məhəmməd Dəvanın "Ərze-sepahe-Uzun Həsən" ("Uzun Həsənin ordusuna baxış") əsərinin tərcüməsi də onun dəyərli xidmətlərindən biridir. XVII əsrin anonim müəllifinin "IV Sultan Muradın" Rəvan və Təbriz səfəri ruznaməsini də dilimizə Şahin müəllim çevirib. Şahin müəllim Əfqanıstanda çalışdığı illərdə milli ədəbiyyat nümunələrimizin fars-əfqan dilinə tərcüməsində və yayılmasında, əfqan ədəbiyyatının isə Azərbaycan oxucularına çatdırılmasında böyük xidmətlər göstərmişdi. O, həmin illərdə Əfqanıstanın bir neçə dövlət mükafatını almışdı.

Şahin Fazilin elmi-ədəbi irsi çoxşaxəli, zəngin mənəvi mənbədir. Bu xəzinə onun adını daim yaşadacaq, müəllifinə şöhrət və rəhmət qazandıracaq.

*Tahir AYDINOĞLU*
*XQ*

# Tanınmış rəssamın AMEA-ya yubiley hədiyyəsi



**Azərbaycanın tanınmış rəssamı, Türkiyənin Afyon Kocatepe Universitetinin professoru Məmməd Şirzad Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə bir sıra əsərlərini AMEA-ya bağışlayıb.**

Azərbaycan incəsənətini, mədəniyyətini dünyada layiqincə təmsil edən professor Məmməd Şirzadın AMEA-ya bağışladığı əsərlər sırasında iri həcmli "Bizim torpaq" pannosu, "Üzümçü qızlar" tablosu, bir sıra portret rəsmləri və Gürcüstan mövzusunda çəkdiyi rəsmlər vardır.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli professor Məmməd Şirzadla görüşüb, rəssama müəllifi olduğu əsərləri akademiyaya bağışladığına görə minnətdarlığını bildirib, qonağa AMEA-nın təşəkkürnaməsini təqdim edib.

Sonda xatirə şəkilləri çəkdirilib.

*XQ*

# Soydaşımız Almatı sənət məclisində



**Qazaxıstan Mədəniyyət Nazirliyi, Türkiyənin Çukurova Ədəbiyyatçılar Dərnəyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə Almatı şəhərində keçirilən X Kültür və Sənət Festivalı uğurla sona yetib.**

Qazax dövlətçiliyinin yaranmasının 800, böyük sərkərdə Muxali Bahadırın anadan olmasının 855 və müasir qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevin 180 illiyi kimi əlamətdar tarixlərə həsr edilən festivalın proqramı üzrə konfrans, kitab təqdimatı, konsert, poeziya gecəsi və ekskursiyalar, eləcə də sərgilər təşkil olunub.

Beynəlxalq Aktivist Sənətçilər Birliyinin təmsilçisi, festivalda təsviri sənət qrupunun rəhbəri, rəssam Nəvai Metin XQ-yə açıqlamasında bildirib ki, Almatı Rəssamlıq Kollecinin tələbə və müəllim heyəti ilə görüşlərdə rəngkarlıq barədə qarşılıqlı fikir mübadilələri aparılıb. Sərgidə rəssamların əsərləri yüksək qiymətləndiribib və onlardan bir qrupu "Turan Birliyi" medalı ilə təltif olunub. Fotoqraf Aydın Mehdiyevin Azərbaycanyaya füsunkar təbiətini əks etdirən fotoları da böyük maraq doğurub.

"Bu cür sənət bayramlarının gələcəkdə də Orta Asiya ölkələrində ardıcıl şəkildə davam etdirilməsi planlaşdırılır" – deyə Nəvai Metin bildirib.

*XQ*

# Budapeştdə macar-türk sammiti




**Macarıstanın paytaxtı Budapeştdə "Mədəniyyət, ali təhsil və innovasiya üzrə macar-türk sammiti" keçirilib.**

Samitin açılış mərasimində Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüraliyev toplantının əhəmiyyətini vurğulayıb, bu qəbildən tədbirlərin dost ölkələrin mədəni əməkdaşlığına mühüm töhfə verdiyini bildirib. Sonra təhsil və innovasiya sahələrində Türk dünyasının Macarıstanla daha sıx əməkdaşlığına həsr olunmuş iki plenar sessiya təşkil olunub. Sessiyalarda türk dövlətlərinin təhsil və innovasiya üzrə nazir müavinlərinin çıxışları dinlənilib.

Tədbirin ikinci günündə sammit "Ortaq mədəni irsimiz: ənənələrimizi dünyaya nümayiş etdirmək üçün region olaraq necə daha yaxşı əməkdaşlıq edə bilərik?" mövzusunda üçüncü plenar sessiya ilə davam edib. TÜRKSOY-un Baş katibi Sultan Raev türkdilli xalqların inteqrasiyası və rəhbərlik etdiyi beynəlxalq təşkilatın mədəniyyət səylərini birləşdirmək üçün həyata keçirdiyi tədbirlər barədə danışıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri – mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxışında ölkəmizlə Macarıstan arasında son illərdə mədəni əməkdaşlıq sahəsində əldə edilmiş uğurlu nəticələri diqqətə çatdırıb. O, iki ölkənin dostluq münasibətlərinin mədəniyyət sahəsində də yüksək səviyyədə inkişaf etdiyini deyib. Qeyd olunub ki, 2023-cü ildə Şuşa şəhərində ilk dəfə Türk Dünyası Mədəniyyət Forumu keçirilib və türk dövlətlərinin mədəni əməkdaşlığı baxımından mühüm təşəbbüslər irəli sürülüb. Eyni zamanda, forumun yekunlarına dair "Şuşa bəyannaməsi" qəbul olunub. Bildirilib ki, türk respublikalarının zəngin tarixi-mədəni irsini əks etdirən ortaq filmlərin, animasiyaların çəkilməsi, bu sahədə mütəxəssislər arasında mübadilə proqramlarının həyata keçirilməsi və s. xalqlarımızı daha da yaxınlaşdırır.

Plenar sessiyada Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan təmsilçiləri də çıxış ediblər. Sammitin sonunda bəyanat qəbul olunub. Sənəddə mədəniyyət sahəsində çoxtərəfli əməkdaşlığın daha da genişləndirilməsi, film sənayesi üzrə əməkdaşlığın möhkəmləndirilməsi, həmçinin muzey işi və media savadlılığı sahəsində gənclərin potensialının artırılması və s. məsələlər əksini tapıb.

*XQ*

# Opera festivalında "Viva Opera" konserti



**Bakıda Fidan Hacıyevanın II Beynəlxalq Opera Festivalı başa çatıb. Aprelin 29-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında "Viva Opera" qala-konserti keçirilib.**

Yekun konsertdə Almaniyadan olan qonaq, "Mannheimer Philharmoniker Orchestra"nın bədii rəhbəri, tanınmış dirijor Boyan Videnovun rəhbərliyi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri və solistlər iştirak ediblər. Proqramda Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Bize, Verdi, Puççini, Rossini, Maskani, Leonkavallo, Cilea və digər bəstəkarların əsərləri səsləndirilib. Xalq artistləri Fidan Hacıyeva, Gülnaz İsmayılova, Əməkdar artistlər Fərid Əliyev, İnarə Babayeva, Fəridə Məmmədova, Səbinə Vahabzadə, opera müğənniləri Mahir Tağızadə, Atəş Qarayev, Nina Makarova, Adil Axundov, Taleh Yahyayev səhnəyə çıxıblar.

Sonda Fidan Hacıyeva jurnalistlərə müsahibə verərək deyib ki, 140 illik yubileyi qeyd olunan dahi Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası ilə açılışını etdiyimiz festivalın hər günü bayrama çevrildi. "Opera tarixi" və "Arzu" konsertləri böyük maraqla qarşılanıb. Burada Leyla xanım Əliyevanın şeirləri əsasında mahnılar ifa olundu. Festivalda istedadlı gənc ifaçıların çoxluq təşkil etməsi xüsusi fərəh doğurdu.

Qeyd edək ki, festivalın keçirildiyi bir həftə ərzində paytaxtın müxtəlif məkanlarında tanınmış azərbaycanlı və xarici ifaçıların, gənc opera müğənnilərinin, eləcə də 6–16 yaşarası istedadların iştirakı ilə konsertlər təşkil olunub.

*XQ*

**Beynəlxalq həyat**

# Türkiyə Avropaya indi daha çox lazımdır

## *Bir vaxtlar Brüssel Ankaraya yad gözlə baxırdı*




**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Romada İtaliyanın Baş naziri Ciorcia Meloni ilə birlikdə iştirak etdiyi Türkiyə-İtaliya birgə biznes-forumunda çıxış edib. Bildirib ki, son illər ölkəsinin iş adamları italiyalı həmkarları ilə birgə bir çox uğurlu layihələr icra edərək, iqtisadi yüksəliş və rifaha töhfə verirlər.**

R.T.Ərdoğan, həmçinin vurğulayıb ki, xanım siyasətçi Ciorcia Meloninin liderliyi ilə İtaliya hökuməti iki ölkə arsında əlaqələrin inkişafına dəstək verir və bu amil münasibətlərə bir dinamizm gətirir. Qardaş ölkənin lideri Türkiyə iqtisadiyyatının mövcud durumu və perspektivləri barədə də fikirlər səsləndirib.

Görünən budur ki, Ankara hazırda Avropa İttifaqının (Aİ) iqtisadi gücünə görə 3-cü dövləti sayılan İtaliya, eləcə də qitənin digər ölkələri ilə sıx əməkdaşlıq qurmağa hazırdır. Yeri gəlmişkən, Türkiyə-İtaliya tərəfdaşlığı Aİ-yə başqa üzv dövlətlər üçün də örnək ola bilər. Təəssüf ki, son dövrlərə qədər, daha dəqiq desək, Rusiyanın Ukraynaya hərbi müdaxiləsinə kimi, Aİ Türkiyə ilə bütün sahələrdə əməkdaşlığa heç də "sıcaq" yanaşmırdı.

Brüssel hətta bir neçə il əvvəl Türkiyə ilə Gömrük İttifaqı müqaviləsinin müddətini uzatmaqdan imtina edib. Bunun üçün ən müxtəlif siyasi və hüquqi bəhanələr gətirilib. Bu, Türkiyənin Aİ üzvləri, eləcə də İtaliya ilə ticarət əlaqələrinə mənfi təsir göstərir. Ankara ümid edir ki, italiyalı siyasətçilər problemin çözülməsi üçün Brüsseldə Türkiyənin lehinə lobbiçilik edə bilər.

Aİ indi Türkiyəyə artıq başqa gözlə baxmağa məhkumdur. Belə ki, qitə dövlətləri öz təhlükəsizlikləri üçün Şərqdən gələn kəskin təhdidlərin fərqindədirlər. Aİ onillər boyu ABŞ-ın "təhlükəsizlik çətiri" altında özünü kifayət qədər komfortlu hiss edirdi. Artıq Pentaqon Avropanı himayə etmək niyyətində deyil. Bir sözlə, qitə öz başının hayına özü qalmalıdır.



Avropanın NATO-da ABŞ-dan ən böyük silahlı qüvvələrə sahib olan Türkiyə ilə dil tapmağa çalışması gözlənilən idi. Qeyd edək ki, Roma ilə Ankara arasında əlaqələrin güclənməsi bu istiqamətdə atılan ilk və mühüm addımlardan biri kimi qəbul edilə bilər. Avropanın digər böyük dövlətləri bundan özləri üçün dərs çıxarmalıdırlar.

Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Atamoğlan Məmmədli hesab edir ki, Fransa və Almaniya uzun illər boyu Türkiyəyə münasibətdə yürütdükləri qısqanc və qərəzli mövqelərindən geri çəkilməlidirlər. Vaxtilə Fransada Ankaranın ünvanına əsassız tənqidi ifadələr işlədənlər artıq öz ritorikalarını dəyişməyə başlayıblar.

Siyasətdə əbədi dostlar olmur, yalnız özəl və milli maraqlar olur. Dünən rəqib, hətta düşmən olanlar bu gün dostlara da çevrilə bilirlər. Fakt budur ki, Türkiyə indi Avropaya çox lazımdır. Eyni zamanda, etiraf edək ki, Aİ də bir tərəfdaş olaraq Ankara üçün böyük əhəmiyyət kəsb edir.

Avropada yazılmamış bir qanun var. Hansı bir dövlət qitəni özünə tabe etmək istəyəndə digər ölkələr bunun əleyhinə çıxırlar. Napoleonun, Hitlerin taleyini göz önünə gətirmək olar. Avropa üçün bu gün qitənin şərqindən qaynaqlanan real təhlükə yaranıb. Türkiyə isə dost və müttəfiqlərə heç vaxt arxa çevirməyib. Buna görə də Ankara ilə dost olmaq istəyənlərin sayı çoxalıb.

***Məsaim ABDULLAYEV***
***XQ***

**Günümüzdə süni intellektin sürətli inkişafı onun bir çox sahələrdə geniş istifadə edilməsinə imkanlar yaradır. Hazırda təhsildən səhiyyəyə, nəqliyyatdan sənayeyə qədər bir çox sahələrdə geniş istifadə olunan süni intellekt jurnalistikaya da nüfuz etməyə başlayıb. Artıq jurnalistikanın bir çox sahələrində süni intellektdən istifadənin kifayət qədər nümunələri mövcuddur. Məsələn, araşdırma jurnalistikasında müntəzəm olaraq böyük məlumat bazalarının təhlil olunmasına ehtiyac yaranır, ancaq bu məlumatların ənənəvi üsullarla təhlil edilməsi zamanı bir qədər çətinliklər yaranır.**

# Süni intellekt indi jurnalistlik də edə bilir



Belə ki, axtardığın məlumatları əldə etmək həm vaxt itkisinə səbəb olur, həm də istədiyin mənbəni tapmaq, yaxud əldə etmək müşkülə çevrilir. Ancaq minlərlə sənəd və məlumatın süni intellekt vasitəsilə analiz olunması müxtəlif tədqiqat istiqamətləri üzrə gizli faktların üzə çıxarılması prosesini sürətləndirir.

Süni intellektin ən praktik tətbiq sahələrindən biri də audio və video materialların avtomatik transkripsiyasının yaradılmasıdır. Bu texnologiya müsahibələrin, çıxışların və digər danışıq materialların yazılı mətndə əks etdirilməsini çox sürətli və dəqiq şəkildə təmin edir. Əvvəllər bu proses saatlarla vaxt aparır, jurnalistləri bütün audiomaterialları dinləyərək onu əllə yazılı mətnə çevirmək məcburiyyəti qarşısında qoyurdu. Ancaq süni intellekt alətləri bu prosesi avtomatlaşdıraraq jurnalistlərin işini xeyli asanlaşdırır, onlara vaxtlarına qənaət etmək imkanı yaradır, eləcə də daha böyük informasiya bazalarına əlçatanlığı yaxşılaşdırır.

Müasir dövrdəki informasiya bolluğu və xəbərlərin sürətlə yayılması "feyk" xəbərlərin də ictimaiyyətə tez bir zamanda nüfuz etməsinə səbəb olur və bu, cəmiyyət üçün ciddi risklər yaradır. Elə bu problemin həllində də süni intellekt texnologiyalarından istifadə səmərəli nəticələr verir. Məsələn, xəbər mətnindəki mənbələrin təhlil edilməsində, "deepfake" və ya manipulyasiya edilmiş vizual materialların aşkar olunmasında süni intellektdən istifadə ictimaiyyətə doğru və şəffaf informasiya çatdırmaq imkanlarını genişləndirir.

Vizual jurnalistikada da süni intellektin imkanlarından istifadə edilərək şəkil və videolardan məlumat çıxarıb təhlil edilir, daha sonra arxivləşdirilir. Bu prosesin mərkəzində şəkil tanıma texnologiyası durur. Tanınmış obyekt və ya şəxslər avtomatik olaraq etiketlənir. Məsələn, "Prezident", "bina", "tədbir", "cəngəllik" kimi açar sözlərlə vizual materiallar axtarılır və təsnif olunur. Xüsusilə də böyük media qurumları (məsələn, CNN, BBC) yüz minlərlə saatlıq video və foto arxivlərini süni intellekt alətləri ilə təsnif edir və kateqoriyalara ayırır. Bu, illər əvvəl çəkilmiş bir hadisəni saniyələr içində tapmağı mümkün edir.

Ancaq onu da qeyd etmək lazımdır ki, süni intellektin jurnalistikaya mümkün mənfi təsiri geniş şəkildə müzakirə olunur. Belə ki, bəzi ekspertlər onun jurnalistlərin işini əvəz edə biləcəyindən narahatdırlar. Lakin bütün bu risklərə baxmayaraq, düzgün şəkildə istifadə edildikdə süni intellekt jurnalistikaya əngəl deyil, əksinə, böyük bir dəstəkdir. O, jurnalistlərin işini asanlaşdırır, vaxta qənaət imkanı yaradır, araşdırma imkanlarını genişləndirir və informasiya keyfiyyətini artırır. Yəni süni intellekt jurnalistləri əvəz etmir, əksinə, onları gücləndirir. Beləliklə, insan təfəkkürünün dominantlığının, eləcə də etik dəyərlərin və jurnalistikanın əsas prinsiplərinin qorunması şərtilə bu texnologiya media dünyasında yeni bir dövrün başlanğıcıdır.

Süni intellektin potensialından maksimum yararlanmaq və riskləri minimuma endirmək üçün media orqanları, jurnalistlər, texnoloqlar və tənzimləyici qurumlar arasında sıx əməkdaşlıq zəruridir. Jurnalistikanın əsas dəyərləri – dəqiqlik, obyektivlik, etibarlılıq və ictimai məsuliyyət süni intellekt texnologiyalarının tətbiqi zamanı da qorunmalı və daha da gücləndirilməlidir. Süni intellekt artıq jurnalistikanın ayrılmaz bir hissəsinə çevrilir, lakin bu transformasiyanın etik prinsiplərə və peşəkar standartlara sadiq qalaraq həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır.

***Xədicə ƏLİYEVA,***
***Azərbaycan Dillər Universitetinin IV kurs tələbəsi***

**GÜNÜN MÖVZUSU**

# Qoy sayımız azalmasın!

## *Lakin son 14 ildə illik doğum 73,7 min nəfər aşağı düşüb*



**Əhali artımının ildən-ilə aşağı düşməsi dünyanın bir çox ölkələri, o cümlədən Azərbaycan üçün ciddi narahatlığa çevrilir. Bu, ölkədə doğumun sayının azalması ilə sıx bağlıdır.**

Ədliyyə Nazirliyinin yerli qeydiyyat şöbələrində 2024-cü ildə 102 min 310 körpəyə şəhadətnamə verilib. Bu, 2023-cü illə müqayisədə əhalinin hər 1000 nəfər hesabı ilə artımın 11,1-dən 10-a düşməsi deməkdir. 2025-ci ilin yanvar–fevral aylarında isə 15 min 971 körpə doğulub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə həmin göstərici 9,7-dək azalıb. Bu rəqəm ölkə tarixində qeydə alınmış ən aşağı göstəricidir. Azalma tempi ilin sonuna qədər davam edərsə, deməli, ciddi enmə baş verəcək və ümumi doğum sayı 100 minə çatmayacaq.

Xatırladaq ki, XXI əsrdən başlayaraq ölkəmizdə əhali artımı 2011-ci ilə qədər müşahidə olunub. 14 il əvvəl 176 min 72 nəfər doğulub. O vaxtdan azalma başlayıb. 2011-ci illə müqayisədə 2024-cü ildə doğulan uşaqların sayı 73 min 662 nəfər az olub. Bu, Azərbaycan üçün düşündürücü rəqəmdir. Bəs doğulanların sayı niyə azalır? Səbəblər isə müxtəlifdir. Bu, ilk növbədə, ölkədə nikaha girənlərin yaş həddinin artması ilə bağlıdır. Hazırda ailə quran gənclərin yaş həddi 28–30 arasında dəyişir. 30–35 yaşlarında ailələ quranlar da az deyil. Nəticədə gec evlilik səbəbindən doğulan uşaqların sayı aşağı düşür. Ölkəmizdə 20 il əvvəl tamamilə fərqli mənzərə vardı. Kişilər 21–25, qadınlar isə 20–24 yaşlarında ailə qururdular. Əvvəl qurulan ailələrdə uşağın tez dünyaya gəlməsi prioritet idisə, indi 3 ildən, 5 ildən sonra uşaq dünyaya gəlir. Bu da müasir ailə modelində fərqli yanaşmanı göstərir.

Yaranmış durumla bağlı, demoqrafiya üzrə mütəxəssis, dövlət mükafatı laureatı Zakir Eminov bildirdi ki, evlilik yaşının artması son vaxtlar ailə dəyərlərində dəyişikliklərlə bağlıdır. Hazırda gənclər təhsillərini və karyeralarını ailə qurmaqdan üstün tuturlar. Uğurlu karyera onların sosial statusunu artırır və cəmiyyətdə tanınmasını təmin edir. Bu, peşəkar və sosial həyatına əhəmiyyətli töhfə vermək istəyənlər üçün mühüm amildir. Karyera həm də onların maliyyə müstəqilliyini təmin edir.

Maliyyə müstəqilliyi isə karyeranın ən vacib aspektlərindən biridir. Məsələn, sabit gəliri olan qadın, başqalarından asılı olmadan özünü inamlı hiss edir və sərbəst qərar verir. Evlənməkdənsə karyera qurmaq, daha yaxşı yaşamaq istəyirlər. Düşünürlər ki, ali təhsil alıb, yaxşı iş yerlərində çalışdıqları üçün mütləq ayrı evləri olmalıdır. Onlar vaxtlarının bir hissəsini uşaqlara ayırmaq istəmirlər. Çünki həm işdə, həm də evdə "enerji sərf edən" həyat tərzi qadınları qorxudur. Nəticədə evliliyi qeyri-müəyyən bir müddətə təxirə salırlar.

Nikah yaşının artmasına digər səbəb isə gənclərin valideynlərinin həyatından gördükləri mənfi nümunələrdir. Onlar ata və analarının səhvlərini təkrarlamaqdan qorxurlar. Qəribə olsa da bu bir faktdır: toydan sonra kişi ilə qadın arasındakı münasibətlər tamamilə dəyişir. Bəzən yaxşılığa, bəzənsə pisliyə doğru... Pisliyə doğru dəyişəndə isə ailədəki söz-söhbətlər artır. Belə ailə mühiti gəncləri evlilikdən soyudur, nikah masasına oturmalarına mane olur. Onlar valideynlərinin səhvlərini təkrarlamaqdan qorxur, tərəddüd edirlər.

Nikaha daxilolma yaşına təsir edən digər amillər də var. Məsələn, kişilərin evlənmək istəməmələrinin əsas səbəblərindən biri onların qadın və ailə üçün məsuliyyət daşımaq istəməmələridir. Vətəndaş nikahında bu məsuliyyət daha aşağıdır. Bu halda kişi psixoloji və hüquqi cəhətdən qadın üçün daha az məsuliyyət daşıyır. Məsələn, vətəndaş nikahında kişi ayrıldığı təqdirdə əldə etdiyi əmlakı bölüşmək məcburiyyətində qalmır. Evlilik isə həm də kişinin maddi yükünü artırır. Bu səbəbdən də onlar nikaha girməkdənsə, vətəndaş nikahına üstünlük verirlər. Kişinin birlikdə yaşadığı qadınla evlənəndə isə yaşı çox olur.

Z. Eminov dedi: "Mən qadınların karyera pilləkənləri ilə irəliləməsini, onların kişilərlə eyni maaş almasını, rəhbər vəzifələrdə işləmələrini, faydalı iş görmələrini dəstəkləyirəm. Təbii ki, qadın özünü xoşbəxt hiss etmək üçün mütləq karyera və ailə arasında dəqiq seçim etməməlidir. Bununla belə, məncə, karyeradan ailə daha önəmlidir. Ailə istilik, sevgi və emosional rahatlıq mənbəyidir. Qadın ailədə dəstək və qayğı tapır, bu da ona çətinliklərin öhdəsindən gəlməyə kömək edir".

Bir çox hallarda isə cütlüklər yalnız uşaq sahibi olmaq qərarına gəldikdən sonra evlənir, 1 və ya 2 uşaq sahibi olmağa üstünlük verirlər. Birincisi, bu, onların sağlamlığı ilə bağlıdır. Bəzən gec evlilik səbəbindən qadının səhhəti 2-dən çox uşaq dünyaya gətirməyə imkan vermir. Bu, həm də onların bioloji imkanları ilə bağlıdır. Eyni problem kişilərdə də müşahidə oluna bilər.

İkincisi, valideynlərin övladlarını sağlam böyütmək və yaxşı təhsil vermək istəkləri də doğulan uşaqların sayına təsir edir. Düşünürlər ki, bu məqsədlə vəsaitlərini 3–4 uşağa deyil, 1–2 uşağa xərcləsələr daha çox uğur qazanmış olarlar. Buna görə də onlar ailədə uşaq sayının az olmasına fokslanırlar. Yəni valideynlər çalışır ki, uşaq sayı az olsun, onlara həm yaxşı təhsil, həm yaxşı tərbiyə versinlər. Gec evlənmənin digər səbəbi isə işsizliklə bağlıdır. Yəni ailə qurmaq məsələsində işsizlik əsas rol oynayır və bu, çox vaxt nikahın qeydiyyatının təxirə salınmasına səbəb olur.

Yada salaq ki, doğumun azalmasına ölkənin 1990-cı illərdə üzləşdiyi demoqrafik vəziyyət də təsir edir. Belə ki, ötən əsrin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində postsovet məkanında keçid dövrü başladı. İqtisadi böhran, yaşayış səviyyəsinin pisləşməsi, millətlərarası münaqişələr və qonşu ölkə ilə hərbi vəziyyət doğumun sayını azaltdı. İndi o vaxt doğulanlar nikaha daxil olurlar. Aydındır ki, bu, doğumun sayına təsir edir.

Ölkədə ciddi narahatlıq doğuran məsələlərdən birinin də doğumun cins tərkibinin süni surətlə pozulması olduğunu qeyd edən müsahibimiz bildirdi ki, bioloji normaya görə, doğulan uşaqlar arasında cinsə görə nisbət 100 qıza 105–106 oğlan təşkil edir. Həyatının ilk 5 ili ərzində oğlan uşaqları arasında ölüm əmsalı daha yüksək olur, 10 yaşa çatanda isə bu nisbət balanslaşır. Beləliklə, doğulan hər 100 qıza düşən oğlan nisbəti 105–106-nı keçməməlidir. Azərbaycanda isə hazırda 100 qıza nisbətdə 116 oğlan doğulur. Doğulan oğlanların sayının çox olması dölün cinsinə görə hamiləliyə son verilməsi ilə bağlıdır. Və bu cür seçim, doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına birbaşa təsir göstərir. Bu, həm Azərbaycan üçün, həm də qlobal yanaşsaq, dünya üçün böyük problemdir. Nəticədə, bu səbəbdən də doğulan uşaqların sayı azalır. Bunlar əvvəllər Qərb ölkələrində trend idi, indi isə bizdə demoqrafik problemlemə çevrilib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib: "Qızlar doğulmadan öldürülürlərsə, bu, getdikcə onların sayının azalmasına gətirib çıxarır. Bu, ilk illərdə özünü o qədər də büruzə vermir, amma zaman keçdikcə orta məktəblərdə qızların sayının azalmasına gətirib çıxarır. Bu, demoqrafik problemlər yaradacaq. Çünki ailələrin qurulması prosesində çətinliklər olacaq. Daha az uşaq dünyaya gələcək. Daha az uşaq dünyaya gəlirsə, deməli, əhalinin sayı azalacaq.

Azərbaycanda vaxtilə çoxuşaqlı ailələr çox olub. Müxtəlif səbəblərdən sayın azalması həm mənəvi, həm də demoqrafiq problemlər yaradır. Bir də ki bu ayrı-seçkilik və qızlara qarşı aşağılayıcı münasibətdir. Bu, qızları dünyaya gətirən anaya qarşı da aşağılayıcı münasibətdir. Çünki bu gün doğulan qız sabahın anasıdır. Onu indidən həyatdan məhrum etməklə gələcəkdə xalqın, dövlətin həyatında iştirakdan da məhrum etməkdir və yolverilməzdir".

Bütün bunların nəticəsində hər il nikaha daxilolmalar azalır. Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, 2024-cü il ərzində ölkədə 49 min 508 nikaha daxilolma halları qeydə alınıb. 2023-cü illə müqayisədə 2024-cü ildə əhalinin hər min nəfərinə nikahların sayı azalaraq 5,3-dən 4,9-a düşüb. Bu, gənc ailələrin az uşaq dünyaya gətirməsinə təsir edir.

Beləliklə, çoxuşaqlı ailələrin sayı azalır, ölkədə yaşlı adamların sayı artır, əhalinin artımı aşağı düşür. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2011-ci ildə əhalinin təbii artımı 122 min 310 nəfər olubsa, 2024-cü ildə bu rəqəm 43 min 401 nəfərə düşüb. Rəqəmlərdən də görünür ki, 2011-ci illə müqayisədə təbii artım 78 min 909 nəfər az olub. Bu gedişlə vəziyyət kritik hal alacaq. Mütəxəssislər qeyd edirlər ki, Azərbaycanda təbii artımın bu cür ləngiməsi əvvəllər müşahidə olunmayıb.

Z. Eminov qeyd edir ki, bu, Azərbaycanda əmək qabiliyyətli yaşda ölən insanların sayını da azaldır: "Əmək qabiliyyətli yaşdan aşağı və yuxarı yaşlarda olan əhali, qeyri-məhsuldar təbəqəni əks etdirir və onların saxlanılmasına böyük həcmdə resurs tələb olunur ki, bu da iqtisadi inkişafın templərini azaldır. Sosial təminat, xüsusilə təqaüd və səhiyyə sistemlərinin qarşısında əlavə problemlər yaradır, əlavə dövlət vəsaitləri və sosial infrastrukturda yeni yanaşmalar və böyük dəyişikliklər tələb edir".

Deməli, gələcəkdə demoqrafik promlemlərlə qarşılaşmamaq üçün vaxtında tədbirlər görülməlidir. Ölkədə əhalinin gənc və enerjili olmasına çalışılmalıdır. Bunun üçün çoxuşaqlı ailələrin beşdən üçə endirilməsi ilə bağlı məsələ ilə yanaşı, mənzil təminatı, təhsil və digər xərclər, sosial müavinətlər həllini tapmalıdır. Yəni gəlirləri aşağı olduğu üçün nikaha girməyənlərə yardım – ailə qurmaq üçün pul mükafatları, uşaq müavinətləri, üçüncü uşağın doğulmasına görə mənzillə təminat kimi üstünlüklər verilməlidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 87 (30781) 1 may 2025-ci il, cümə axşamı

İdman

## Plovdivdə 4 medal



**Savat üzrə Azərbaycan millisi Bolqarıstanın Plovdiv şəhərində keçirilən “World Open Savate” turnirində uğurla çıxış edib.**

Azərbaycan Savat Federasiyasından verilən məlumata görə, kadetlər arasında təşkil olunan yarışda Ağamirzə Mahmudbəyli (30 kq) qızıl, Üzeyir Məsimov (36 kq) bürünc medal qazanıblar. Beyrək Bağırov (80 kq) və Sənan Babazadə (+85 kq) isə gümüş mükafata layiq görülüblər.

## 7 şahmatçımız “Top-100”də



**FİDE şahmatçıların may üçün dünya reytinqini açıqlayıb. Siyahıda ilk 100-lükdə Azərbaycanın 7 şahmatçısı yer alıb.**

Kişi şahmatçılarımız Şəhriyar Məmmədyarov (2746 xal, 14-cü yer) və Teymur Rəcəbov (2692 xal, 40-cı yer) 1 pillə geriləyiblər. Rauf Məmmədov (2657) 69-cu pillədəki yerini qoruyub.

Qadınların cədvəlində 8 pillə geriləyən Gövhər Beydullayeva (2394) 53-cü sıraya enib. Digər təmsilçilərimiz Günay Məmmədzadə (2390) 57-ci, Ülviyyə Fətəliyeva (2374) 67-ci, Xanım Balacayeva (2358) 82-ci, Gülnar Məmmədova (2352) isə 91-ci yerdədirlər.

Cədvələ 2837 xalla norveçli Maqnus Karlsen başçılıq edir. Qadınların reytinq cədvəlinin lideri 2633 xalla çinli Yifan Houdur.

## AFFA 4 klubu cərimələyib



**AFFA-nın İntizam Komitəsinin növbəti iclasında Misli Premyer Liqasının XXXII turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.**

“Kəpəz” – “Zirə” oyununda nominal meydan sahiblərinin azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə 3-cü dəfə yaşandığına görə Gəncə klubu 1000 manat cərimə edilib.

“Araz-Naxçıvan”la matçda 4 futbolçusu sarı vərəqə alan “Səbail” 700 manat cərimələnib. “Sabah” – “Qarabağ” qarşılaşması bitdikdən sonra meydançaya kənar şəxs daxil olduğuna görə, Bakı klubu 800 manat ziyana düşüb. Ağdam təmsilçisi isə azarkeşlərin pirotexniki vasitədən istifadə etməsinə görə 1500 manat cərimə ödəyəcək.

*L.AZAD*
*XQ*

*✓ Günəşli Aynur Cavanşir qızına məxsus Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi (N 756748) itdiyi üçün etibarsız sayılır.*

“Prezident Kuboku–2025”

# Suqovuşanda beynəlxalq su yarışı




**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilən avarçəkmə üzrə “Prezident Kuboku-2025” reqatasının təntənəli açılışı olub. Mərasimdə Azərbaycan Avarçəkmə və Kanoe Federasiyasının baş katibi Fərhad Əliyev reqataya xarici ölkələr tərəfindən marağın getdikcə artdığını qeyd edib. Bunun sevindirici hal olduğunu deyən qurum rəsmisi hər il turnirin yüksək səviyyədə keçirildiyini vurğulayıb.**

Avropa Kanoe Assosiasiyasının prezidenti Yan Zunqrana turnirin Azərbaycanda keçirilməsinin önəmini, bu idman növünün ölkəmizdə son illər inkişaf etdiyini, yarışda güclülərin qalib gələcəyinə əminliyini vurğulayıb.

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov reqatanın Suqovuşanda artıq 5-ci ildir keçirildiyini, təşkilatçılığın ildən-ilə təkmilləşdiyini deyib. Nazir bildirib ki, bu idman növü üzrə yerli və beynəlxalq yarışlar işğaldan azad edilmiş ərazilərdə növbəti illərdə də keçiriləcək: “İştirakçı sayından da görünür ki, reqataya maraq ildən-ilə artır. Suqovuşanda ilk dəfə keçirilən reqatada bu say 4 idisə, indi 20-dən çoxdur”.

Rəsmi çıxışlardan sonra turnir açıq elan olunub. Açılış mərasimindən sonra jurnalistlərə açıqlama verən Milli Olimpiya Komitəsinin vitse-prezidenti Fərid Mansurov işğaldan azad olunmuş torpaqlarımızda idman yarışlarının təşkilinin qürurverici hal olduğunu söylədi: “Beynəlxalq reqatanın Azərbaycanda keçirilməsi həm ölkə idmanının inkişafına töhfədir, həm də kanoe və avarçəkmənin kütləviləşməsinə imkanlar yaradır. Belə bir yarışın Suqovuşanda təşkili qürurverici haldır. Bütün bunlar gənclərin idmana olan marağını daha da artırır”.




Milli Məclisin deputatı Elman Nəsirov isə qeyd etdi ki, Suqovuşanda belə bir yarışın təşkili ilə dünyaya sülh mesajı göndəririk: “Beynəlxalq turnir yüksək səviyyədə təşkil olunub. İştirakçı ölkələrin sayının artması bir daha göstərir ki, bu yarışın Azərbaycanda keçirilməsinə maraq ildən-ilə artır. Bu isə idman hadisəsi olmaqla yanaşı, həm də siyasi məna daşıyır. Qəhrəman igidlərimizin canı-qanı hesabına azad olunan Suqovuşanda beynəlxalq turnir keçirməklə onların ruhunu sevindiririk”.

Yarışda kayak üzrə 200 metr məsafədə ilk mükafatçılar müəyyənləşib. Azərbaycan təmsilçilərindən Amil Ramazanov 2007 – 2008 təvəllüdlü idmançıların mübarizəsində bürünc mükafata sahib çıxıb. 2009 – 2010 təvəllüdlü idmançılardan Əlimurad Hacızadə, 13-14 yaşlılardan Mustafa Vəlizadə 3-cü yeri tutublar.

Qeyd edək ki, “Prezident Kuboku-2025” beynəlxalq reqatasında müxtəlif ölkələrdən 200-dən artıq idmançı iştirak edir. Yarış mayın 1– 2-də Mingəçevir “Kür” Olimpiya Tədris-İdman Mərkəzində davam edəcək.

Burada komandalar avarçəkmənin kayak, kanoe və akademik növündə müxtəlif məsafələrdə güclərini yoxlayacaqlar. Bağlanış mərasimində əvvəl qaliblər mükafatlandırılacaq. Kayak-kanoe və akademik avarçəkmə üzrə kuboklar sahiblərinə təqdim ediləcək. Reqataya atəşfəşanlıqla yekun vurulacaq.

Xatırladaq ki, “Prezident Kuboku” reqatası ardıcıl üçüncü ildir Avropa Kanoe Assosiasiyasının (ECA) rəsmi təqvim planına daxil edilib.

*Leyla QURBANOVA*
*XQ*

SAĞLAMLIQ

## Spirt “şəkər”i alovlandırır

**Bəzi insanların fikrincə, şəkər xəstələrinə müəyyən miqdarda meyvə arağı içmək xeyirdir. Amma araşdırmalar onu göstərir ki, bu fikir kökündən yanlışdır. Alkoqol diabetdən əziyyət çəkən insan üçün inanılmaz dərəcədə təhlükəlidir. Endokrinoloq və genetik Kristina Kuznetsova jurnalistlərə bu barədə açıqlamasında deyib:**



– Spirt orqanizmdə mühüm orqanların fəaliyyətini pozur. Onlardan biri də şəkər xəstələri üçün zəruri olan insulin istehsal edən orqandır.

Şəkər xəstəliyindən əziyyət çəkən insan üçün spirt közü alovlandırmaq kimidir. Alkoqoldan istifadə, hətta, ölümlə nəticələnə bilər. Çünki spirt insulin istehsal edən qaraciyər və mədəaltı vəzin fəaliyyətini pozur.

Endokrinoloq diabetdən əziyyət çəkən insanlara ciddi fəsadların qarşısını almaq üçün tövsiyə edir:

– pəhrizə riayət etmək;

– qanda insulin səviyyəsini mütəmadi olaraq izləmək;

– sağlam həyat tərzinə əməl etmək lazımdır.

Həkim vurğulayıb ki, bu xəstəlik digər orqanların işinə mənfi təsir göstərdiyi üçün, xüsusilə, təhlükəlidir. Şəkərli diabet ürəyə, böyrəklərə, qaraciyərə və qan damarlarına ziyan vurur.

Spirt və çaxır isə qan damarlarını təmizləmir, əksinə, onun elastikliyini azaldır. Buna görə də alkoqoldan uzaq durmaqda fayda var.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

## Aranda buludlu, dağlarda yağış və duman...



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata görə, mayın 1-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 9-11°, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış olacağı, şimşək çaxacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-11°, gündüz 18-23° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## 965 min dollarlıq dəbilqə

**Əfsanəvi Formula 1 çempionu Ayrton Sennanın dəbilqəsi RM Sotheby's hərracında rekord məbləğə – 965 min dollara satılıb.**



Senna bu dəbilqədən 1992-ci ildə Belçika Qran-Prisində istifadə edib. Məşqlər zamanı “McLaren” sürücüsü ağır qəzadan sonra huşunu itirən Erik Komaya ilk yardım göstərib. Əvvəlki rekord “Ferrari” sürücüsü Çarlz Leklerə məxsus idi. Onun dəbilqəsi 2023-cü ildə 352 min dollara satılmışdı.

Qeyd edək ki, Ayrton Senna üçqat Formula 1 çempionudur (1988, 1990, 1991). 1994-cü ildə – 34 yaşında San-Marino Qran-Prisindəki qəzada avtomobilinin beton divara çırpılması nəticəsində dünyasını dəyişib.

*L.SABİRQIZI*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Şəki Apellyasiya Məhkəməsi cinayət kollegiyasının sədri Akif Eyvazov Şabran–Siyəzən Dairə Seçki Komissiyasının sədri Saleh Təhməzova anası

**MEŞƏXANIM TƏHMƏZOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3420
SİFARİŞ 876
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00